RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 115 (8708) ŞƏNBƏ, 5 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Bakıda yenidən “Formula-1” həyəcanı yaşanır



**Bu günlərdə Bakı yenidən möhtəşəm tədbirə evsahibliyi edir. Artıq ikinci gündür ki, paytaxtımızda növbəti dəfə “Formula-1” yarışlarının həyəcanı yaşanır. “Formula-1” üzrə dünya çempionatının altıncı yarışı olan Azərbaycan Qran-prisində dünyada məşhur olan Luis Hemilton, Fernando Alonso, Sebastyan Fettel, Valtteri Bottas kimi tanınmış pilotlar mübarizə aparırlar. Dünyanın yüz milyonlarla avtomobil idmanı həvəskarının diqqəti yenidən Azərbaycana yönəlib.**

## Azərbaycan ən mükəmməl idman infrastrukturuna malikdir

Beynəlxalq idman yarışlarına evsahibliyi etmək kifayət qədər məsuliyyətli öhdəlikdir. Hər bir ölkə bu cür yarışlara evsahibliyi etmək arzusundadır. Çünki bu cür yarışlar ölkənin imicinin daha yüksəlməsi, turizm imkanlarının dünyada təbliği baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Amma hər ölkə belə yarışları təşkil etmək imkanında deyil. Çünki istənilən beynəlxalq idman tədbiri zamanı həm idmançıları beynəlxalq standartlar çərçivəsində qarşılamaq lazımdır, həm də yarışı izləmək üçün ölkəyə gələn çoxsaylı xarici qonağın yerləşə bilməsi üçün müəyyən infrastruktur olmalıdır. Məsələn, indiyədək Ermənistanda çox nadir hallarda beynəlxalq idman yarışları keçirilib. Keçirilən yarışların isə statusu aşağı, iştirakçıların sayı isə həddən artıq az olub. Çünki bu ölkənin çoxsaylı idmançıların iştirak etdiyi idman tədbirini təşkil etməyə, birdən-birə minlərlə turisti qarşılamağı imkanı çatmır.

Azərbaycana gəldikdə isə, tamamilə fərqli mənzərəni görmək mümkündür. Daha dəqiq ifadə etsək, Azərbaycan artıq uzun illərdir ki, beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının keçirilməsində möhtəşəm nümunələr yaradır. İndiyədək Azərbaycanda I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları kimi böyük idman tədbirləri keçirilib. Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasətinin nəticəsi olaraq Bakıda yaradılan möhtəşəm infrastruktur bu yarışların hər birini ən mükəmməl şəkildə təşkil etməyə imkan verib. Həm də təsdiq olunub ki, Bakı şəhəri və eləcə də regionlarımız istənilən sayda xarici qonağı qəbul edə bilər.

Azərbaycan bu idman yarışlarına ən ideal şəkildə evsahibliyi etməklə Avropanın və İslam dünyasının idman tarixinə öz möhürünü vurub, yeni və ideal təşkilatçılıq nümunələri yaradıb. Ölkəmiz bütün dünyaya evsahibliyinin və yüksək təşkilatçılığın necə olduğunu göstərib.

Ardı 7-ci səh.

# Birinci vitse-prezident Mehriban Əliyeva azərbaycanlı dinc mülki şəxslərin Kəlbəcərdə minaya düşərək həlak olmaları ilə bağlı başsağlığı verib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində iyunun 4-də Kəlbəcərdə azərbaycanlı dinc mülki şəxslərin mina partlaması nəticəsində həlak olmaları ilə bağlı paylaşım edib.**



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimovun və Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin Kəlbəcər rayonunda vəzifə borcunu yerinə yetirərkən minaya düşərək həlak olmaları barədə xəbəri dərin kədər hissi ilə qarşıladım. Müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçıları tərəfindən quraşdırılmış minalara düşüb. Onlardan 27-si həlak olub. Günahsız insanların ölümünə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozmağa və Azərbaycana qarşı terror siyasəti həyata keçirməyə davam edir. Təəssüf ki, Azərbaycan tərəfinin ATƏT-in Minsk qrupu ölkələrinə, həmçinin müxtəlif beynəlxalq təşkilatlara mina xəritələrinin verilməsi məsələsində Ermənistana təzyiq göstərmələri ilə bağlı çağırışları heç bir nəticə vermədi. Jurnalist hüquqlarının müdafiəçisi qismində çıxış edən beynəlxalq qeyri-hökumət təşkilatları hələ də susmaqda davam edir! Azərbaycan xalqı müzəffər xalqdır! Onun iradəsini sındırmaq və onu qorxutmaq qeyri-mümkündür! Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin! Məkanları cənnət olsun!”

**Mehriban ƏLİYEVA**

# Yüksək ehtiramın təcəssümü

## Dünyanın güc mərkəzləri İlham Əliyevin Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallığı təqdir edirlər

**İkinci Qarabağ müharibəsindəki şanlı zəfəri ilə Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradan Azərbaycanın həm də beynəlxalq münasibətlər sistemindəki yeri və rolu daha da güclənib.**

Bu gün Azərbaycan həm yeni hərbi-siyasi güc mərkəzi, həm də qlobal oyunçu, beynəlxalq arenada sözü eşidilən, mövqeyi qəbul edilən dövlət kimi qəbul edilir. Azərbaycanın regionda uzunmüddətli sülhün, əməkdaşlığın və təhlükəsizliyin təmin olunması üçün yaratdığı şərait beynəlxalq təşkilatlar və güc mərkəzləri tərəfindən təqdir olunur.

Prezident İlham Əliyevin eyni gündə iki güc mərkəzi olan Çin Xalq Respublikasının Sədri Si Cinpin və Avropa İttifaqının prezidenti Şarl Mişel arasında telefon söhbətləri zamanı səslənən fikirlər də bunun təsdiqidir.

### Çin Azərbaycanın beş böyük ticarət tərəfdaşından biridir

Son 18 ildə həm İlham Əliyevin təşəbbüsü, həm də Azərbaycanın iştirakçılığı ilə reallaşan qlobal transmilli layihələr ölkəmizi Avropanın enerji təhlükəsizliyinin təminatçısına və Avrasiyanın nəqliyyat-logistika mərkəzinə çevirib.

Dünyanın böyük güc mərkəzlərindən olan Çinlə əməkdaşlıq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. İki ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf etdirilir. Dövlət başçılarının qarşılıqlı səfərləri siyasi, iqtisadi, humanitar və mədəni sahələrdə ölkələrimiz arasında dayanıqlı münasibətləri daha da möhkəmləndirib. Prezident İlham Əliyev son 18 ildə 5 dəfə Çinə rəsmi və işgüzar səfər edib. Bu səfərlər zamanı iki ölkə arasında mühüm sənədlər imzalanıb. Yəni qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycanın və Çinin dövlət başçılarının siyasi iradəsi, aparılan intensiv dialoq ölkələr arasında əlaqələrin genişlənməsi üçün əlverişli imkan yaradıb.

Ardı 8-ci səh.



# Arpanı sütül...

**Dünyada əhalinin sürətlə artması ilə ərzaq məhsullarına olan tələbat da çoxalıb. Hətta o dərəcədə ki, təklif bu artımın öhdəsindən gələ bilmir. Bu səbəbdən dünya bazarında ərzaq məhsullarının qiymətləri də bahalaşır. Bahalaşma isə insanların ərzağa əlçatanlığını azaldır. BMT-nin Dünya Ərzaq Təşkilatının (FAO) məlumatına görə, qiymətləri bahalaşan kənd təsərrüfatı məhsulları sırasında taxıl ön yerlərdədir. Odur ki, taxıl istehsalı strateji sahə sayılır. O üzdən bu gün dünyanın bir çox ölkəsinin taxıla olan tələbatı ödəmək üçün əkin sahələrini genişləndirməsi təsadüfi deyil. Ölkəmizdə də taxılçılığın inkişafına önəm verilir. Bu sahə ilə məşğul olan fermerlərə daim dövlət səviyyəsində xüsusi dəstək verilir. Dövlət tərəfindən ilk dəfə subsidiya ödənilən sahə də məhz taxılçılıqdır.**

Bax: səh. 6

# Təbiətə ana desək də...

## Təəssüf ki, hələ də ona övlad ola bilmirik

**Sağlam və təmiz mühitdə yaşamaq insanın hüquqlarından biridir. Əhali sayının sürətlə artımı, təbii sərvətlərin doğru istismar edilməməsi, planlaşdırılmamış sənayeləşmə kimi amillər ətraf mühitin çirklənməsinə səbəb olur. Bu, nəinki insana, yer üzündəki bütün canlıların həyatına təhlükə yaradır.**

Rəsmi faktlara görə, on yeddinci yüzillikdən bəri, azı 112 məməli və 94 quş növü “Qırmızı kitab”a salınıb. Ekoloqlar bu qənaətdədir ki, ətraf mühitin çirklənməsi azalmasa, bir çox heyvan növü nəsli kəsilmə riski ilə üz-üzə qalacaq. İnsanların fiziki və psixoloji vəziyyətinə mənfi təsir göstərən bu problemin qarşısı alınmazsa, bəşəriyyətin məhvi qaçılmaz ola bilər. Ona görə də bütün hökumət və qeyri-hökümət təşkilatları ekoloji maarifləndirməni müntəzəm diqqətdə saxlamalı, müəyyən qabaqlayıcı tədbirlər həyata keçirməlidirlər. Heydər Əliyev Fondunun bu istiqamətdə reallaşdırdığı layihələrin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. IDEA-nın da tətbiq etdiyi layihələr nümunəviliyi ilə diqqət çəkməkdədir. Ekologiya problemlərinə bölgə deyil, kompleks şəkildə yanaşılmalıdır.

1972-ci ildə BMT Baş Assambleyasının İsveçin paytaxtı Stokholm şəhərində keçirilən iclasında ətraf mühitin mühafizəsi məsələsi diqqət mərkəzində olub. Problemin kəskinliyini nəzərə alan iştirakçılar 5 iyunun “Ümumdünya ətraf mühitin mühafizəsi günü” kimi qeyd olunmasına qərar verib. Növbəti ildən başlayaraq həmin gün bütün dünyada təntənəli şəkildə qeyd olunur.

Ardı 5-ci səh.



# Şəhərin abadlığı küçə və prospektlərinin vəziyyətindən məlum olur

**Bakının dünyada ən gözəl və bənzərsiz şəhərlərdən biri olduğunu heç kəs inkar edə bilməz. Müasirliklə qədimliyin qol-boyun olduğu bu şəhər getdikcə böyüyür və daha çox göz oxşayır. Həm də onun cəlbediciliyi təkcə yeni tikililəri, müasir sosial infrastrukturu ilə səciyyələnmir. Həyata keçirilən təmir, bərpa, yenidənqurma tədbirləri sayəsində paytaxt şəhərimizin qəsəbələri, bir çox küçələri və binaları da öz əvvəlki görkəmini qoruyub saxlayır. Beləliklə, həm tarix yaşayır, həm insanlar rahatlıq əldə edir, həm də Bakı daha çox turistin görmək istədiyi məkana çevrilir.**

Bax: səh. 6

# Ağcabədi və Bərdə rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağcabədi və Bərdə rayonlarının əhalisi 37061 nəfər olan 18 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyun 2021-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə İsrail xalqı və dövləti adından Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram.

Azərbaycan Respublikası İsrail Dövlətinin vacib və yaxın tərəfdaşı olmaqla yanaşı, həm də dostu və müttəfiqidir. Bizim tərəfdaşlığımız Azərbaycan və yəhudi xalqlarının qardaşlıq tarixinə, eləcə də millətlərimizin dini tolerantlığı təşviq etmək, nifrəti və antisemitizmi bütün formalarda rədd etmək istiqamətində birgə səylərinə əsaslanır.

İsraildə Azərbaycanın ticarət və turizm nümayəndəliklərinin açılması münasibətilə Sizi və ölkənizi təbrik edirəm, bu, iqtisadi əlaqələrimizi inkişaf etdirəcək və xalqlarımızı daha da yaxınlaşdıracaq. Yaxın gələcəkdə Azərbaycan Respublikasının İsraildə səfirliyinin açılmasını səbirsizliklə gözləyirəm.

Sizə və Azərbaycan xalqına sülh, inkişaf, sabitlik və firavanlıq diləyir, dostluğumuzun hələ də bizim üçün qoruduğu parlaq gələcəyə ümid edirəm.

Zati-aliləri, Sizə böyük hörmət və ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Reuven RİVLİN,***
***İsrail Dövlətinin Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin müstəqilliyinin 103-cü ildönümü - Respublika Günü münasibətilə bütün Laos xalqı adından və şəxsən öz adımdan zati-alinizə və bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə ən dərin ehtiramımı bildirirəm.

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırır, böyük xalqınıza tərəqqi, firavanlıq arzu edirəm.

***Luis ABİNADER,***
***Dominikan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-ailələri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi, ailənizi, zati-alinizin simasında bütün Azərbaycan xalqını və dövlətini Sudan hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz və xalqlarımız arasındakı mövcud ikitərəfli əlaqələrdən məmnunluq hissi keçirdiyimi bildirir, aramızdakı qardaşlıq və sülh tellərinin getdikcə daha da möhkəmlənəcəyinə əminliyimi ifadə edirəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Abdel Fattah Abdelrahman AL-BURHAN,***
***Sudan Respublikasının Suveren Keçid Şurasının sədri***

❖ ❖ ❖

Cənab Prezident.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və xalqımın adından ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Mavriki ilə Azərbaycanı qarşılıqlı hörmət və dostluğa əsaslanan yaxşı ikitərəfli münasibətlər birləşdirir. Mən əminəm ki, bu əlaqələr gələcəkdə daha da möhkəmlənəcək.

Bu xoş fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının sədri kimi ötən il gözəl təşəbbüsə - videokonfrans vasitəsilə COVID-19-la mübarizəyə həsr olunmuş Zirvə görüşünə evsahibliyi etdiyinizə görə Sizə və Azərbaycan hökumətinə təşəkkür edirəm. Əminəm ki, belə təşəbbüslər pandemiyadan ciddi zərərçəkmiş ölkələrə, xüsusilə də Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardımın göstərilməsinə, bu çətin zamanda vaksinlərin, dərmanların və tibbi avadanlıqların onlar üçün əlçatan olmasına kömək edəcəkdir.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı bildirir və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

***Pravind Kumar CAQNOT,***
***Mavriki Respublikasının Baş naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı adından və şəxsən öz adımdan zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik arzularımı çatdırıram. Xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Qu DONQYU,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Baş direktoru***

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 iyun tarixli Sərəncamına Əlavə*

## Ağcabədi və Bərdə rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağcabədi | 10 | Göyük kəndi (2 quyu) | 931 |
| | | | Hindarx qəsəbəsi | 9721 |
| | | | Xocavənd kəndi | 3778 |
| | | | İmamqulubəyli kəndi | 1240 |
| | | | Salmanbəyli kəndi | 2692 |
| | | | Şahmalılar kəndi | 328 |
| | | | Şərəfxanlı kəndi | 957 |
| | | | Yuxarı Qiyaməddinli kəndi (2 quyu) | 3555 |
| 2. | Bərdə | 10 | Bala Qacar kəndi | 904 |
| | | | Birinci Qaradəmirçi kəndi | 2218 |
| | | | Əmirli kəndi | 2048 |
| | | | Hacallı kəndi | 1740 |
| | | | Xanərəb kəndi | 2266 |
| | | | Xanxanımlı kəndi | 407 |
| | | | İkinci Nazırlı kəndi | 824 |
| | | | Körpüsındıran kəndi | 722 |
| | | | Kürdborakı kəndi | 721 |
| | | | Mehdixanlı kəndi | 2009 |
| **Cəmi:** | | **20** | **18** | **37 061** |

# Pakistanın Prezidenti Azərbaycan Milli Məclisinin sədrini qəbul edib

**İyunun 4-də Pakistan Prezidenti Arif Alvi bu ölkədə rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarovanı qəbul edib.**





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Milli Məclisinin sədrini və parlament nümayəndə heyətini Pakistanda görməkdən məmnunluğunu ifadə edən Pakistan Prezidenti Arif Alvi onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Bildirib ki, dost və qardaş ölkələr olan Pakistanla Azərbaycanın münasibətləri strateji müttəfiqlik səviyyəsindədir. Pakistan Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət yürütməsinə görə indiyədək bu ölkəni tanımayıb. Pakistan Prezidenti Azərbaycanın 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarını azad etməsi münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, qardaş ölkənin öz ərazi bütövlüyünü bərpa etməsi Pakistanda böyük sevinc hissi ilə qarşılanıb. Pakistan həmişə Azərbaycanın haqq işində onun yanında olub və bundan sonra da belə olacaq.

Səmimi qəbul və Azərbaycan haqqında xoş sözlərə görə təşəkkürünü bildirən Milli Məclisin sədri Sahibə Qafarova Prezident İlham Əliyevin də salamlarını Pakistan Prezidentinə çatdırıb.

Bu səfərin Milli Məclisin sədri kimi Pakistana ilk rəsmi səfəri olduğunu deyən Sahibə Qafarova burada keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Bildirib ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanla Pakistanın bir-birinə qarşılıqlı dəstəyi əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir.

Ölkələrimiz İƏT PA ilə yanaşı, digər beynəlxalq təşkilatlar çərçivəsində də çox səmərəli əməkdaşlıq edirlər. Pakistan Prezidentinin 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının 18-ci Zirvə toplantısı çərçivəsində ölkəmizə səfərini xatırladan spiker diqqətə çatdırıb ki, bu günədək ölkələrimiz arasında müxtəlif sahələrdə imzalanmış hüquqi sənədlər əlaqələrimizin hüquqi bazasını təşkil edir. Bu xüsusda 2015-ci ildə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" xüsusi əhəmiyyət kəsb edir. Milli Məclisin sədri bildirib ki, iqtisadi və ticari əlaqələrimizin daha da dərinləşdirilməsi üçün geniş imkanlar var. Humanitar sahədə əməkdaşlığın davamlı inkişafına xüsusi diqqət göstərilir. Heydər Əliyev Fondunun dəstəyi ilə Pakistanda həyata keçirilən sosial-humanitar layihələrə görə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 2015-ci ildə Pakistanın ali ordeni olan "Hilal-e Pakistan" ilə təltif olunub. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın şanlı Zəfərindən danışan Sahibə Qafarova bildirib ki, ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi ilə Dağlıq Qarabağ münaqişəsi birdəfəlik tarixə qovuşub.

Xocalı soyqırımını, saysız-hesabsız müharibə cinayətlərini törədən Ermənistan işğalçıları kapitulyasiya aktına imza ataraq acı məğlubiyyətlə barışmalı oldular. Milli Məclisin sədri qeyd edib ki, Azərbaycan torpaqlarını işğaldan azad etməklə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərimizdən çıxarılmasına dair 4 qətnaməni özü yerinə yetirib.

Sahibə Qafarova deyib ki, indi isə Ermənistan işğalından azad edilmiş Azərbaycan ərazilərində yeni dövr başlayıb - genişmiqyaslı bərpa və yenidənqurma dövrü. Lakin münaqişə başa çatsa da, bəzi problemlər hələ də qalmaqdadır. Belə ki, Ermənistan işğaldan azad olunmuş ərazilərimizə terrorçu dəstələr göndərir, minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir, sərhədlərin delimitasiyasına mane olur.

Sədr qardaş Pakistan hökuməti və parlamenti tərəfindən Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə verilən qətiyyətli dəstəyə, o cümlədən Pakistan xalqı tərəfindən nümayiş etdirilən mənəvi köməyə görə minnətdarlığını bildirib.

Qeyd edib ki, Pakistan parlamentinin keçmiş Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı barəsində qəbul etdiyi bir sıra qətnamə və bəyanatlar da bu dəstəyin önəmli hissəsidir. Pakistan parlamentinin Vətən müharibəsi dövründə də prinsipial mövqeyini birmənalı şəkildə ifadə etməsi Azərbaycanda yüksək qiymətləndirilir.

Bildirib ki, hər iki ölkənin parlamentində fəal işgüzar əlaqələr saxlayan, müxtəlif məsələlər üzrə dəstəyini ifadə edən dostluq qruplarının fəaliyyət göstərməsi ali qanunverici orqanlarımız arasında əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir.

Sonra görüşdə digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Milli Məclisin sədri Sahibə Qafarova qardaş ölkənin Prezidentinə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitab təqdim edib və kitabdakı materiallar barədə Pakistan Prezidentinə məlumat verib.



# Milli Məclisin sədri Sahibə Qafarova Pakistana rəsmi səfəri çərçivəsində Azərbaycanın bu ölkədəki səfirliyində olub

Milli Məclisin sədri Sahibə Qafarova Pakistan İslam Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın bu ölkədəki səfirliyində olub.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin sədri burada Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstəsi qoyub.

Sonra parlamentin sədri və nümayəndə heyətinin üzvləri səfirlik əməkdaşları ilə tanış olaraq, onlar üçün yaradılmış şəraitlə yaxından maraqlanıblar.

Milli Məclisin sədri səfirlikdəki xatirə kitabına ürək sözlərini yazıb.

# Azərbaycan ilə Pakistan arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri müzakirə olunub

Pakistanda rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova iyunun 4-də Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sancrani ilə görüşüb.







Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancrani ölkələrimiz arasında tarixən formalaşmış və Azərbaycanın müstəqilliyi dövründə daha da möhkəmlənmiş əlaqələrdən söz açıb. Qeyd edib ki, Pakistan Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. İki ölkənin dövlət və hökumət başçılarının, parlament rəhbərlərinin qarşılıqlı rəsmi və işgüzar səfərləri zamanı imzalanan sənədlər çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması üçün lazımi hüquqi baza yaradıb. Beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərdə aparılan yüksəksəviyyəli siyasi dialoq ən müxtəlif sahələrdə münasibətlərimizin inkişafına və əlaqələrimizin möhkəmlənməsinə müsbət təsir göstərib.

2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən böyük sevinc və qürur duyduqlarını bildirən Məhəmməd Sadiq Sancrani təbriklərini Sahibə Qafarovaya çatdırıb. O deyib ki, Pakistan Dağlıq Qarabağı və ətraf əraziləri işğal etdiyinə görə Ermənistanı dövlət kimi tanımır və onunla diplomatik əlaqələr qurmayıb. Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, bundan sonra da dəstəkləyəcək.

Azərbaycan haqqında xoş sözlərə görə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində keçirilən bütün tədbirlərin, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransının çox yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Sahibə Qafarova diqqətə çatdırıb ki, hazırkı səfər onun Milli Məclisin sədri kimi Pakistana ilk rəsmi səfəridir. Milli Məclis Pakistan İslam Respublikasının Senatı və Milli Assambleyası ilə ikitərəfli və çoxtərəfli formatlarda münasibətlərin inkişafında və daha da möhkəmlənməsində maraqlıdır.

Milli Məclisin sədri qeyd edib ki, ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlığın səviyyəsi əlaqələrimizin inkişafı üçün geniş imkanlar yaradır. Azərbaycan-Pakistan münasibətlərinin möhkəmlənməsində dövlət başçılarının xüsusi rolu var.

Sahibə Qafarova Heydər Əliyev Fondunun dəstəyi ilə Pakistanda həyata keçirilən sosial-humanitar layihələrdən söz açıb, xeyirxah əməllərinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın illər əvvəl Pakistanın ali ordeni ilə təltif olunduğunu məmnunluqla qeyd edib.

Görüşdə Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən iftixarla söz açan Milli Məclisin sədri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun şücaəti sayəsində Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalına son qoyulduğunu, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirərək ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdırıb. Sahibə Qafarova Qarabağ münaqişəsinin artıq tarixə qovuşduğunu, Xocalı soyqırımını törədən işğalçıların kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldıqlarını qeyd edib. Bildirib ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Qarabağda bərpa və quruculuq işləri başlayıb. Lakin Ermənistan bu işə mane olur, minalanmış ərazilərin xəritələrini vermir, sərhəddə təxribatlar törədir, işğaldan azad olunmuş ərazilərimizə terrorçuların keçməsinə şərait yaradır. Ermənistanın minalanmış ərazilərin xəritələrini verməməsinə görə hərbçilərlə yanaşı, mülki şəxslər də həlak olur və ya zərər çəkir.

Söhbət zamanı Milli Məclisin sədri Vətən müharibəsi dövründə Pakistan parlamentinin bəyanat və qətnamələr qəbul edərək prinsipial mövqe nümayiş etdirməsini, qardaş Pakistan hökuməti tərəfindən Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə qətiyyətli dəstək verilməsini, Pakistan xalqının mənəvi dəstəyini xalqımızın çox yüksək qiymətləndirdiyini vurğulayıb. Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri ətraflı müzakirə olunub, beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlığın, eləcə də ikitərəfli siyasi, iqtisadi, ticarət, mədəni əməkdaşlığın genişləndirilməsi vacibliyi vurğulanıb.

Sonra Sahibə Qafarova parlamentlərarası münasibətlərin inkişafındakı xidmətlərinə görə Pakistan Senatının sədri Məhəmməd Sadiq Sancraniyə Milli Məclisin Fəxri medalını təqdim edib.

Görüşdən sonra Sahibə Qafarova Pakistan Senatının xatirə kitabına ürək sözlərini yazıb.

# Ermənistan beynəlxalq öhdəliklərini kobud şəkildə pozmaqda davam edir

## XİN: “Mülki azərbaycanlıların vəzifə borclarını yerinə yetirərkən mina qurbanına çevrilməsinin bütün məsuliyyəti Ermənistanın üzərinə düşür”

**Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin birgə məlumatına əsasən, 2021-ci il iyunun 4-də səhər saatlarında Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşüb.**

Partlayış nəticəsində çəkiliş qrupunun iki nəfər üzvü, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov, habelə rayon icra hakimiyyətinin nümayəndəsi Arif Əliyev həlak olub, 4 nəfər isə yaralanıb.

Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılara isə Allahdan şəfa diləyirik.

Azərbaycan tərəfi Ermənistanın beynəlxalq humanitar hüququ, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarını kobud şəkildə pozaraq Azərbaycan ərazilərində məqsədli şəkildə və geniş miqyasda minalar basdırması məsələsini davamlı şəkildə beynəlxalq müstəvidə qaldırır.



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi məlumat yayıb.

Məlumatda deyilir: “Kəlbəcərdə baş verən bu hadisə bir daha onu göstərir ki, bu ərazideki minalar Ermənistan tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geriçəkilmə mərhələsində məqsədli şəkildə yerləşdirilib. Məqsəd isə Azərbaycan tərəfinə mümkün qədər ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə əlavə maneələr yaratmaqdır.

Xatırladırıq ki, bir müddət əvvəl Kəlbəcər istiqamətində Azərbaycan ərazilərinə daxil olaraq, ərazidə yolların minalanmasına yönəlmiş təxribat törədərkən Ermənistan silahlı qüvvələrinin bir qrup hərbçisi saxlanılıb. Bu da bir daha göstərir ki, Ermənistan tərəfi həm hərbi, həm də mülki şəxslərin həyatına və təhlükəsizliyinə ciddi təhdid yaratmaqda davam edir, beləliklə, bölgədə vəziyyəti gərginləşdirir. Ermənistanın bu davranışı regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir.

Mülki azərbaycanlıların vəzifə borclarını yerinə yetirərkən mina qurbanına çevrilməsinin bütün məsuliyyəti Ermənistanın üzərinə düşür.

Beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa və Ermənistandan beynəlxalq hüquq qarşısında üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməsini tələb etməyə çağırırıq.

Azərbaycan öz tərəfindən sülhü və təhlükəsizliyi təmin etmək üçün bütün müvafiq, o cümlədən lazımi hüquqi tədbirləri görəcəkdir”.

## Ombudsman Kəlbəcər rayonunda ermənilər tərəfindən basdırılmış minaya düşərək həlak olan mülki şəxslərlə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsmanın) Kəlbəcər rayonunda ermənilər tərəfindən basdırılmış minaya düşərək həlak olan mülki şəxslərlə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:

“Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının işğaldan azad olunmuş ərazilərdə çəkiliş aparan əməkdaşları iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşüblər. Çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkət olan yolda tank əleyhinə minaya düşməsi nəticəsində ikisi öz peşə fəaliyyətini həyata keçirən jurnalist və biri dövlət qurumu əməkdaşı olmaqla üç nəfər həlak olub, dörd nəfər isə ağır bədən xəsarətləri alıb.

Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular 2020-ci ilin 10 noyabr tarixində üçtərəfli Bəyanatın imzalandığı gündən bəri 120-dən çox insanın həlak olmasına və yaralanmasına səbəb olub.

Ermənistan siyasi və hərbi rəhbərliyinin vaxtilə işğal altında saxladıqları bu ərazilərə basdırılan minaların xəritələrinin açıqlanmasından imtina etmələri, hətta Ermənistan ordusunun həmin ərazilərdən çıxarkən xüsusilə mülki ərazilərə işarələnməmiş minaları basdırması, son günlərə qədər təxribat diversiya qrupları vasitəsilə yeni minaların basdırılmasına cəhd etməsi onların daha çox insan tələfatına yol açmaqda və regionda yeni münaqişə ocaqlarının yaradılmasında maraqlı olduğunu göstərir.

Regionda insan həyatına və sağlamlığına ciddi təhdid olan bu vəziyyət bizi dərindən narahat edir. Ölkə ombudsmanı olaraq bu barədə narahatlığımızı dəfələrlə beynəlxalq insan hüquqları qurumlarına bildirərək, insan tələfatının qarşısının alınması məqsədilə Ermənistan rəhbərliyi qarşısında müvafiq tələblərin qoyulması ilə bağlı müraciətlər etmişik. Təəssüflə qeyd etmək istərdim ki, mina xəritələrinin verilməsi ilə bağlı Ermənistana hər hansı bir beynəlxalq təzyiqin göstərilməməsi hər gün daha bir günahsız insanın həyatını itirməsinə səbəb olur. Hesab edirik ki, aidiyyəti beynəlxalq insan hüquqları qurumları baş verən bu insan hüquqları pozuntularına etinasız yanaşmamalı və mandatları çərçivəsində müvafiq addımları atmalıdırlar.

Bir daha aidiyyəti beynəlxalq insan hüquqları təşkilatlarına müraciət edərək, baş verən bu insan hüquqları pozuntusuna etinasız qalmamağa, mandatlarından irəli gələn tələblərə məsuliyyətlə yanaşaraq Ermənistanın siyasi və hərbi rəhbərliyini cinayət əməllərindən çəkindirməyə çağırırıq.

Ombudsman təsisatı olaraq Ermənistan siyasi və hərbi rəhbərliyinin insan hüquqlarının kobud pozuntusu ilə nəticələnən bu və digər ağır cinayət əməllərinin ifşası və onların ədalət mühakiməsinə cəlb olunması istiqamətində fəaliyyətimizi davam etdirəcəyik”.

## Jurnalistlərin Həmkarlar İttifaqı xidməti fəaliyyətini yerinə yetirərkən həlak olan jurnalistlərlə bağlı beynəlxalq təşkilatlara müraciət edib

Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ) xidməti fəaliyyətini yerinə yetirərkən həlak olan jurnalistlərlə bağlı beynəlxalq təşkilatlara müraciət edib. Bu barədə AZƏRTAC-a JuHİ-dən məlumat verilib.

Müraciətdə deyilir: “Təəssüf hissi ilə bildiririk ki, 2021-ci il iyunun 4-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov və “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) operatoru Sirac Abışov peşə fəaliyyətlərini yerinə yetirərkən həlak olublar. Hadisə Azərbaycan Respublikasının Kəlbəcər rayonunda, Ermənistan işğalından yenicə azad edilmiş ərazidə mina partlayışı səbəbindən baş verib.

Məlumat üçün bildiririk ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından, Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından sonra bənzər təxribat halları dəfələrlə baş verib. Ermənistan tərəfindən vaxtilə ərazidə yerləşdirilmiş müxtəlif növ minalar və digər partlayıcı qurğular indiyədək onlarca insanın həyatına son qoyub, yaralanmasına səbəb olub. Məhərrəm İbrahimovun və Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisə minalanmış ərazilər probleminin jurnalist fəaliyyətinə də maneçilik törətdiyinin, məhdudiyyət yaratdığının, peşəni əsl təhlükəyə çevirdiyinin bariz göstəricisidir. Nəzərə almalıyıq ki, hər iki media orqanının əməkdaşı Kəlbəcər rayonuna məhz xidməti vəzifələrini yerinə yetirmək üçün getmişdilər.

Ermənistan Respublikası minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verməkdən imtina edir. Bu, nəinki həmin ərazilərdə jurnalist yaradıcılığını məhdudlaşdırır, eyni zamanda Ermənistanın işğalı nəticəsində zorla doğma yurdlarından ayrı düşmüş məcburi köçkün ailələrinin geri qaytarılmasına da imkan vermir. Beləliklə, həm cəmiyyətin informasiya ilə təminatı, həm də insanların öz evlərində yaşamaq hüququ pozulur.

Jurnalistlərin Həmkarlar İttifaqı Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) operatoru Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisədən bir daha kədərləndiyini bildirir.

Biz jurnalistlər Ermənistanın insan hüquq və azadlıqlarına zidd əməlindən əl çəkməsini, minalı ərazilər üzrə xəritələrin təqdim etməsini istəyirik.

Biz xaricdəki həmkarlarımızı bu fakta ciddi reaksiya verməyə, Ermənistan Respublikasına minalanmış ərazilərin xəritələrini vermək üçün təzyiq göstərməyə çağırırıq”.

Müraciət Beynəlxalq Jurnalistlər Federasiyasına (İFJ), Beynəlxalq Söz Azadlığı Mübadiləsi Təşkilatına (İFEX), “Sərhədsiz Reportyorlar”a (RSF), Jurnalistləri Müdafiə Komitəsinə (CPJ), ARTICLE 19-a, Beynəlxalq Media Dəstəyi təşkilatına (İMS), Beynəlxalq Mətbuat İnstitutuna (İPİ) və Avropa Jurnalistlər Federasiyasına (EFJ) ünvanlanıb.

## QHT-lərə Dövlət Dəstəyi Agentliyi Kəlbəcərdə minaya düşərək həlak olmuş jurnalistlərlə bağlı beynəlxalq qurumlara müraciət ünvanlayıb

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurası Kəlbəcərə ezam olunmuş KİV nümayəndələrinin və digər mülki şəxslərin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində həlak olması və yaralanması ilə bağlı hadisəyə mövqeyini bildirmək məqsədilə təcili iclas keçirib. İclasda çıxış edən Müşahidə Şurasının üzvləri hadisə zamanı həlak olmuş şəxslərin yaxınlarına başsağlığı verib, yaralananlara Allahdan şəfa diləyiblər. Eyni zamanda çıxış edən şəxslər hadisəni törətmiş Ermənistanın bu hərəkətini kəskin qınayıblar. İclasın yekunu olaraq Müşahidə Şurası adından bəyanat qəbul edilib.

AZƏRTAC bəyanatı təqdim edir:

İyunun 4-də saat 11:00 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu “KamAZ” markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər - Azərbaycan Televiziyasının operatoru Sirac Abışov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Ermənistanın silahlı qüvvələri beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, xüsusilə 1949-cu il tarixli Cenevrə konvensiyalarının tələblərini kobud şəkildə pozaraq minaladığı ərazilərimizin xəritəsini verməməklə vətəndaşlarımıza qarşı hərbi cinayət əməllərini davam etdirir. Baş vermiş hadisə təkcə mülki şəxslərə qarşı hərbi cinayət deyil, o cümlədən peşə fəaliyyətini həyata keçirən media nümayəndələrinə edilən açıq terror aktıdır.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata uyğun olaraq, işğal altındakı Kəlbəcərin boşaldılması tarixinin Ermənistan rəhbərliyinin xahişi ilə humanistlik göstərilərək əlavə 10 gün müddətinə uzadılmasından sui-istifadə edən qarşı tərəf rayondan çıxarkən əraziləri kütləvi surətdə minalamaqla ağır cinayət törətmişlər. Bu səbəbdən təəssüf ki, indiyədək, yəni müharibə başa çatdıqdan sonra azad edilmiş ərazilərdə ümumilikdə 130-a yaxın şəxs mina partlaması nəticəsində həlak olub və ya yaralanıb. Onların arasında çoxlu sayda mülki şəxs, o cümlədən peşə fəaliyyətini yerinə yetirən media nümayəndələri də var.

Biz, Müşahidə Şurasının üzvləri beynəlxalq təşkilatlara, media təsisatlarına, jurnalistlərin hüquqlarını müdafiə edən qurumlara müraciət edir, onları Ermənistanın bu hərbi cinayətini qəti şəkildə pisləməyə, minalanmış ərazilərin xəritəsini dərhal Azərbaycana təqdim edilməsini Ermənistandan tələb etməyə çağırırıq.

## Baş Prokurorluq və DİN media nümayəndələrinin Kəlbəcər rayonunda minaya düşərək həlak olmaları ilə bağlı birgə məlumat yayıb

Ermənistanın silahlı qüvvələri beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının tələblərini kobud şəkildə pozmaqla ərazilərimizi minalayaraq vətəndaşlarımıza qarşı cinayət əməllərini davam etdirir.

Azərbaycan Respublikası Baş Prokurorluğu

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, iyunun 4-də saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu “KamAZ” markalı sərnişin avtomobilinin rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 3 nəfər - Azərbaycan Televiziyasının operatoru Sirac Abışov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda intensiv istintaq-əməliyyat hərəkətləri həyata keçirilir.

## Medianın İnkişafı Agentliyinin, Azərbaycan Dövlət İnformasiya Agentliyinin və Azərbaycan Televiziyasının birgə məlumatı

İşğaldan azad olunan ərazilərdə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) və Azərbaycan Televiziyasının (AzTV) çəkiliş qrupları fəaliyyət göstərir.

Həmin qrup işğaldan azad olunmuş ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış yaşayış məntəqələrinin çəkilişini həyata keçirir.

İyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşüb. Nəticədə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AZTV-nin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, yaralananlar var.

Həlak olanlara Allahdan rəhmət diləyir, onların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirik.

## Medianın İnkişafı Agentliyi Kəlbəcərdə mina partlaması nəticəsində həlak olan jurnalistlərlə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi Kəlbəcərdə mina partlayışı nəticəsində həlak olan jurnalistlərlə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:

- İşğaldan azad edilmiş Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən “Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) müxbiri Məhərrəm İbrahimovun və daha bir mülki vətəndaşımızın minaya düşərək həlak olması, bir neçə nəfərin yaralanması Ermənistanın terrorçu əməllərinin növbəti əyani sübutudur. Bütün beynəlxalq konvensiyalara və əldə olunmuş razılıqlara zidd olaraq Ermənistan tərəfindən işğaldan azad olunmuş ərazilərdə yerləşdirilmiş minaların xəritələrinin Azərbaycana təhvil verilməməsi minlərlə insanın həyatını təhlükəyə məruz qoyur və bu gün olduğu kimi günahsız insanların ölümü ilə nəticələnir.

Törədilən terror aktı beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların əlavə protokollarının ağır pozuntusu olmaqla, Ermənistanın sülhə, təhlükəsizliyə və beynəlxalq hüquqa saymazyana münasibətinin, cəzasızlıq mühitinin formalaşdırılması səbəbindən bu kimi qeyri-insani davranışları vərdiş halına gətirməsinin və humanist ideyaları təcavüzkar milliyyətçiliyə qurban verməsinin göstəricisidir.

İşğaldan azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən törədilmiş qeyri-insani hərəkətlər, nadir mədəni tarixi abidələrimizin amansızcasına dağıdılması, təbii sərvətlərimizin talan edilməsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, tarixi reallıqların lentə alınaraq əbədiləşdirilməsi məqsədilə ən çətin şəraitdə çalışarkən həlak olmuş jurnalist həmkarlarımızın vəfatından kədərləndiyimizi bildirir, ailələrinə başsağlığı verir, Allahdan onların əzizlərinə və doğmalarına səbir diləyirik.

## Azərbaycanın baş prokuroru beynəlxalq təşkilatlara məktub ünvanlayıb

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı, Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı, “Amnesty İnternational” və “Human Rights Watch” təşkilatlarına rəsmi müraciət ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Baş Prokurorluğundan məlumat verilib.

Müraciətdə qeyd edilib ki, Ermənistanın silahlı qüvvələri beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini kobud şəkildə pozmaqla ərazilərimizi minalayaraq vətəndaşlarımıza qarşı cinayət əməllərini davam etdirir.

Belə ki, iyunun 4-də saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu avtobusun rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində 2 media əməkdaşı və 1 dövlət qurumunun əməkdaşı ölüb, 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Vurğulanıb ki, qeyd edilən faktla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmaqla hazırda intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Kamran Əliyev Ermənistan tərəfinin işğaldan azad edilmiş ərazilərimizdə uzun illər ərzində bastırdığı minaların xəritə və sxemlərini bugünədək təqdim etməməsini Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı törətmiş olduğu təxribat xarakterli aktların davamı kimi qiymətləndirərək, onlardan beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyi tələb edib.

Eyni zamanda baş prokuror insanların həyatını xilas edilməsinə kömək edə biləcək bu xəritələri və digər zəruri məlumatları Ermənistanın təqdim etməkdən imtinasının Azərbaycan əhalisinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolunun 1-ci maddəsi, 4 saylı Protokolunun 2(1) və 3(2) maddələrindən irəli gələn hüquqlarının ciddi şəkildə pozulmasına səbəb olduğunu diqqətə çatdırmaqla, üçtərəfli Bəyanatın imzalandığı gündən indiyədək 18 mülki şəxsin həlak olduğunu, 24 şəxsin isə müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Sonda baş prokuror nüfuzlu beynəlxalq təşkilatlar və dünya ictimaiyyətindən törədilmiş cinayətlərlə bağlı səlahiyyətləri çərçivəsində Ermənistan rəhbərliyinə qarşı tədbir görülməsini xahiş edib.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Kəlbəcərdə minaya düşərək həlak olan jurnalistlərlə bağlı bəyanat yayıb

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olan mülki şəxslərlə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin Mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: “Aqressiya Qurbanı olan Günahsız Uşaqlar Gününün qeyd olunduğu iyunun 4-də azərbaycanlı uşaqlar növbəti dəfə erməni terrorundan zərər çəkdilər. 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması ilə İkinci Qarabağ müharibəsinin bitməsinə baxmayaraq, Ermənistanın Azərbaycana qarşı təxribatçı əməlləri davam edir. İşğaldan azad olunmuş torpaqlarımızda çəkiliş aparan Azərbaycan Televiziyasının və Azərbaycan Dövlət İnformasiya Agentliyinin əməkdaşlarının, həmçinin bir dövlət qurumu nümayəndəsinin iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək həyatlarını itirməsi, nəqliyyat vasitəsində olan digər dörd nəfərin isə ağır xəsarətlər alması ilə nəticələnən növbəti cinayət hadisəsi baş vermişdir. Nəticədə daha 3 ailənin azyaşlı uşaqları atasız qalmış, ata nəvazişindən və qayğısından məhrum olmuşdur.

Ermənistan Silahlı Qüvvələri tərəfindən davam edən amansız və aqressiv davranışlar 44 günlük Vətən müharibəsi dövründə özünü daha qabarıq büruzə verdi. Bütün dünya Azərbaycanın münaqişə zonasından kənarda yerləşən Naftalan, Ağcabədi, Gəncə və Bərdə şəhər və rayonlarında mülki əhaliyə qarşı ermənilərin terror hücumlarının yaxından şahidi oldu. Bu terror hadisələri nəticəsində 12 uşağın həyatını itirməsi, 50 azyaşlının isə xəsarət alması işğalçı Ermənistan silahlı qüvvələrinin əsl simasını bir daha ortaya qoydu.

Otuz ilə yaxın müddətdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə, xüsusilə də uşaqlara qarşı amansız və aqressiv davranışlarının bu günədək davam etməsi, insanların həyat və sağlamlıqlarının ciddi təhlükə altında qalması ümumilikdə insan hüquqlarına ziddir.

Azərbaycan dövləti və xalqı barbarlığın, insan və bəşəriyyət əleyhinə düşmənçiliyin ən pis və eybəcər üzü olan Ermənistan və onun faşist xisləti ilə daha nə qədər üz-üzə qalmalı, daha nə qədər soydaşımız öz torpağında bu qəddar düşmənçiliyin qurbanı olmalı, daha nə qədər körpə, azyaşlı və yeniyetmənin ömrü yarıda qalmalı, gələcəyi məhv olmalı, arzu və xəyalları puç olmalıdır ki, cavabdeh beynəlxalq qurumlar buna laqeyd qalmasınlar və lazımi münasibət bildirsinlər?

Axı uşaqları müharibə və hərbi cinayətlərin təsirlərindən qorumaq, onların yaşamaq hüququnu təmin etmək hər birimizin borcudur. Hər bir uşağın sülh şəraitində, zorakılıqdan uzaq, xoşbəxt ailə mühitində, valideynləri ilə birgə yaşamaq hüququ vardır.

Odur ki, bütün aidiyyəti beynəlxalq təşkilatları və bütövlükdə dünya birliyini BMT-nin Uşaq Hüquqları Konvensiyasını, eləcə də Cenevrə Konvensiyalarını kobud şəkildə pozaraq, insan həyatına qəsd etməkdə davam edən erməni hərbi siyasi hakimiyyətini sərt şəkildə qınamağa, işğaldan azad olunmuş ərazilərdə basdırılmış minaların xəritələrinin Azərbaycana verilməsi üçün təcili və təxirəsalınmaz tədbirlər görməyə çağırırıq.

# Ermənistan beynəlxalq öhdəliklərini kobud şəkildə pozmaqda davam edir

## MTRŞ beynəlxalq təşkilatları minalanmış ərazilərin xəritələrini Azərbaycana verməsi üçün Ermənistana çağırış etməyə dəvət edib

İyunun 4-də Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirərkən AzTV kanalının operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) müxbiri Məhərrəm İbrahimov minaya düşərək həlak olub, bir neçə şəxs yaralanıb. Milli Televiziya və Radio Şurası həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralılara isə Allahdan şəfa diləyir.

AZƏRTAC xəbər verir ki, bu barədə Milli Televiziya və Radio Şurasının Kəlbəcərdə mina partlayışı nəticəsində həyatını itirmiş jurnalistlərlə bağlı bəyanatında deyilir.

Bildirilir ki, azad olunmuş ərazilərdə Ermənistan tərəfindən işğal dövründə çoxlu sayda mina yerləşdirilib. İndiyə qədər onlarca mülki şəxs minaya düşərək həlak olub və ya yaralanıb. Daha çox itkilərin baş verməsinin qarşısının alınması məqsədilə minalanmış ərazilərin xəritələrinin təqdim edilməsi prosesini Ermənistan həyata keçirmir.

Dünya ictimaiyyətini, beynəlxalq təşkilatları Azərbaycanın minalanmış ərazilərinin xəritələrini təqdim etməsi üçün Ermənistana çağırışlar etməyə dəvət edirik

## Azərbaycan jurnalistlərinin xarici media qurumlarına və beynəlxalq təşkilatlara müraciəti qəbul olunub

**İyunun 4-də Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimovun və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) operatoru Sirac Abışovun Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olmaları ilə bağlı Azərbaycan jurnalistlərinin xarici media qurumlarına və beynəlxalq təşkilatlara müraciəti qəbul edilib. AZƏRTAC Mətbuat Şurasına istinadla 120-dən çox media, jurnalist təşkilatı rəhbəri və müstəqil jurnalist tərəfindən imzalanan müraciəti təqdim edir.**

- 2021-ci il iyunun 4-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) Qarabağa ezam olunan müxbiri Məhərrəm İbrahimov və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) operatoru Sirac Abışov Azərbaycanın Ermənistan işğalından azad edilmiş Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olublar. Daha bir mülki şəxsin həlak olduğu, dörd nəfərin isə yaralandığı bu hadisə Azərbaycan jurnalistlərində dərin üzüntü, kədər, təəssüf və hiddət hissi doğurmuşdur.

İkinci Qarabağ müharibəsinin başa çatmasından, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra Ermənistan tərəfindən vaxtilə ərazidə yerləşdirilmiş müxtəlif növ minalar və digər partlayıcı qurğular indiyədək xeyli sayda mülki şəxsin həyatına son qoyub, yaralanmalarına səbəb olub. Təxminən 35 mindən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir. Məhərrəm İbrahimovun və Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisə minalanmış ərazilər probleminin jurnalist fəaliyyətinə də maneçilik törətdiyinin, məhdudiyyət yaratdığının, peşəni əsl təhlükəyə çevirdiyinin bariz göstəricisidir. Nəzərə alaq ki, hər iki media orqanının əməkdaşı Kəlbəcər rayonuna məhz xidməti vəzifələrini həyata keçirmək üçün getmişdilər.

Ermənistan Respublikası minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Bu, nəinki həmin ərazilərdə jurnalist yaradıcılığını məhdudlaşdırır, eyni zamanda Ermənistanın işğalı nəticəsində zorla doğma yurdlarından ayrı düşmüş məcburi köçkün ailələrinin geri qaytarılmasına da imkan vermir. Beləliklə, həm cəmiyyətin informasiya ilə təminatı, həm də insanların öz evlərində yaşamaq hüququ pozulur. Otuz ilə yaxın müddətdə işğalçılıq yolu tutmuş Ermənistan indi də mina xəritələrini verməkdən imtina etməklə özünün beynəlxalq hüquqa zidd niyyətini gerçəkləşdirməkdə, bölgədə sülhün və əmin-amanlığın yaranmasına qarşı çıxmaqdadır.

Onu da bildiririk ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq işlərinə başlanılıb. Əraziyə xarici şirkətlərin böyük marağı var. Bu maraq eyni zamanda müxtəlif ölkələrdən jurnalistlərin bölgəyə axınını şərtləndirməkdədir. Ermənistanın mina xəritələrini verməkdən imtinası xarici media təmsilçilərinin də həyatlarına təhlükədir. Bu, məqsədli şəkildə edilən hərəkətdir, bəşəri dəyərlərə birbaşa təhdid əməlidir. Çox istərdik ki, beynəlxalq təşkilatlar, o cümlədən jurnalistika sahəsində fəaliyyət göstərən nüfuzlu qurumlar məsələ ilə bağlı qətiyyətli və prinsipial mövqelərini bildirsinlər. Hesab edirik ki, onların verəcəkləri sərt reaksiya Ermənistanın tutduğu antibəşəri yoldan daşınmasına əməli töhfə ola bilər. Biz Azərbaycan jurnalistlərinin gözləntisi məhz bundan ibarətdir.

Biz Azərbaycan jurnalistləri Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (AzTV) operatoru Sirac Abışovun həyatlarını itirmələri ilə nəticələnmiş faciəli hadisədən bir daha kədərləndiyimizi bildiririk. Bu müraciəti imzalamaqda məqsədimiz beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın insan hüquq və azadlıqlarına zidd əməlinə çəkməkdir.

Biz xaricdəki həmkarlarımızı bu fakta ciddi reaksiya verməyə, Ermənistan Respublikasına minalanmış ərazilərin xəritələrini vermək üçün təzyiq göstərməyə çağırırıq. Əmin edirik ki, bu çağırış missiyasına dəstək insanların, habelə jurnalistlərin həyatları üçün mövcud olan təhlükənin aradan qaldırılmasına köməkdir. Bu dəstək həmçinin bölgədə sülhün, əmin-amanlığın və sabitliyin yaradılmasına son dərəcə böyük töhfə ola bilər.

## CBC telekanalı Beynəlxalq Jurnalistlər Federasiyası və Jurnalistləri Müdafiə Komitəsinə müraciət ünvanlayıb

"Caspian International Broadcasting Company" (CBC) Telekanalının baş direktoru Vüqar Xəlilov Azərbaycanın Kəlbəcər rayonunda xidməti fəaliyyətini yerinə yetirərkən mina partlaması nəticəsində həlak olan jurnalistlərlə bağlı Beynəlxalq Jurnalistlər Federasiyasına (İFJ) və Jurnalistləri Müdafiə Komitəsinə (CPJ) müraciət ünvanlayıb.




AZƏRTAC müraciəti təqdim edir: "Nəzərinizə çatdırıram ki, iyunun 4-də saat 11 radələrində xidməti vəzifələrinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının işğaldan azad edilmiş Kəlbəcərə ezam olunan televiziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu "KamAZ" markalı sərnişin avtomobili rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşüb və nəticədə 3 nəfər - Azərbaycan Televiziyasının (AzTV) operatoru Sirac Abışov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimov, eləcə də Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Ermənistan ilə Azərbaycan arasındakı bütün hərbi əməliyyatlara son qoyulmasını bildirən üçtərəfli Bəyanat imzalandığı vaxtdan bu günədək işğaldan azad olunan Azərbaycan ərazilərində mina partlaması nəticəsində 100-dən çox vətəndaşımız həlak olub və ya ağır yaralanıb. Onların əksəriyyəti əmək qabiliyyətini itirib, bir çox ailələr isə başçısını, uşaqlar valideynini itirib. Mövcud problemin hələ də təhlükə olaraq qalmasının əsas səbəbi Ermənistanın işğal dövründə minaladığı ərazilərin xəritəsini Azərbaycana təhvil verməməsidir. Həmin xəritələrin verilməməsinin ümdə məqsədi bölgədə Azərbaycan əhalisinin həyatına qəsd etmək, doğma yurdlarından didərgin salınmış məcburi köçkünlərin qayıdışına əngəl olmaqdır. Bu, məqsədyönlü şəkildə postmüharibə dövründə minalanmış ərazilərdə mülki vətəndaşların və hərbçilərimizin bilərəkdən həlak olmasına hesablanıb. Sözügedən xəritə təqdim olunmadığı müddətdə həmin ərazidə xidmət aparan istər hərbçilərin, istərsə də vəzifə borcunu yerinə yetirən media nümayəndələrinin həyatı hər zaman təhlükə altında qalmaqda davam edəcək. Ermənistanın bu addımı gələcəkdə işğaldan azad olunan ərazilərdə qurulacaq yeni infrastrukturdan sonra öz torpaqlarına geri dönəcək sivil vətəndaşlar üçün də potensial təhlükədir.

Qeyd etməliyəm ki, indiki halda Ermənistan "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını, 1980-ci il 10 oktyabr tarixli "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiya minalanmış ərazilərin dəqiq qeyd edilməsini və döyüş əməliyyatları başa çatdıqdan sonra minaların təmizlənməsi üçün lazımi tədbirlərin görülməsini tələb edir. Bu protokola məhəl qoymadığı üçün Ermənistana qarşı sanksiyaların tətbiqi mümkündür. Bunun üçün, sadəcə, dünya ictimaiyyətindən obyektiv yanaşma sərgiləməsi, ortaya konkret iradə qoyması tələb edilir.

BMT Təhlükəsizlik Şurası tərəfindən 2017-ci ildə qəbul edilən 2365 saylı qətnaməyə əsasən, quruma üzv dövlətlər minaya qarşı mübarizədə öhdəliklərini yerinə yetirməlidirlər. Bu öhdəliklərdən biri də məhz postmüharibə dövründə minalanmış ərazilərin xəritəsinin təqdim edilməsi ilə bağlıdır. Ermənistan bu xəritəni Azərbaycana verməməklə qeyd edilən qətnamənin tələblərini pozur. Bu səbəbdən BMT Təhlükəsizlik Şurası çərçivəsində Ermənistana qarşı müvafiq addımların atılması zəruri şərt kimi çıxış edir.

Bunları nəzərə alaraq, sizdən baş verən hadisəyə reaksiya verməyinizi və səsimizi dünya ictimaiyyətinə çatdırmaqla bu təxribatları törədənlərə qarşı sərt tədbirlər görülməsinə yardım etməyinizi xahiş edirəm".

## AZƏRTAC üzvü olduğu beynəlxalq və regional media təşkilatlarına müraciət ünvanlayıb

AZƏRTAC iyunun 4-də Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olması və yaralanması ilə əlaqədar üzvü olduğu beynəlxalq media təşkilatlarına - Dünya Xəbər Agentlikləri Konqresinin (NAWC), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA), İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinin (UNA), Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Ərəb Ölkələri Xəbər Agentlikləri Təşkilatının (FANİA), bu təşkilatlara üzv olan agentliklərin və digər beynəlxalq media qurumlarının rəhbərlərinə müraciət edib.




Müraciətdə deyilir: "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minaların xəritəsinin verilməsi barədə təkidli tələblərinə baxmayaraq, Ermənistan bundan israrla boyun qaçırır, müraciətlərə məhəl qoymur. İnsanlıqla bir araya sığışmayan bu məkrli hərəkətlər nəticəsində mülki insanlar həlak olur, yaralanır. Növbəti faciəvi hadisə iyunun 4-də baş verib. Bu dəfə erməni təxribatının qurbanı jurnalistlər olublar. Azərbaycan Dövlət İnformasiya Agentliyinin ( AZƏRTAC) və Azərbaycan Televiziyasının (AzTV) işğaldan azad olunmuş ərazilərdə çəkiliş aparan əməkdaşları iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşüblər. İçərisində jurnalistlərin olduğu nəqliyyat vasitəsinin yolda tank əleyhinə minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov, həmçinin onları müşayiət edən Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olublar. Ağır yaralanan 4 nəfər xəstəxanaya yerləşdirilib.

AZƏRTAC dünya mediasının, beynəlxalq və regional jurnalist təşkilatlarının rəhbərlərini Ermənistanın davam etməkdə olan təxribatçı hərəkətlərini qətiyyətlə pisləməyə, etiraz səslərini ucaltmağa çağırır. Bu, dinc insanların həyatına qəsd olmaqla yanaşı, azad sözə, jurnalistlərin fəaliyyətinə qarşı yönəlmiş açıq-aşkar terror aktıdır. Ümid edirik ki, dünya mediası və beynəlxalq jurnalist təşkilatları buna biganə qalmayacaqlar".

Müraciətdə diqqətə çatdırılır ki, son günlərdə Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya dəstələri Ermənistan-Azərbaycan dövlət sərhədində, o cümlədən Kəlbəcər rayonu istiqamətində Azərbaycan ərazilərinin dərinliyinə daxil olaraq, kəşfiyyat-diversiya əməliyyatları və yolların minalanmasına yönəlmiş təxribat terror fəaliyyəti həyata keçirməyə cəhd göstərirlər. İlkin ehtimala görə, jurnalistlər həmin diversantlar tərəfindən basdırılmış minaya düşüblər. Baş verənlər Ermənistan tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və keçid yollarını növbəti minalama cəhdlərinin faciəvi nəticəsinə daha bir sübutdur. Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular müharibə başa çatdıqdan sonrakı 7 ay ərzində 120-dən çox insanın həlak olmasına və ya yaralanmasına səbəb olub.

"Sizi bir daha Ermənistanın beynəlxalq hüququn normalarına zidd əməllərini, öz xidməti vəzifəsini yerinə yetirən media işçilərinin, həmçinin digər mülki şəxslərin erməni terrorunun qurbanı olmasını pisləməyə, jurnalist həmrəyliyi nümayiş etdirməyə çağırırıq", - deyə müraciətdə vurğulanır.

## Hərbi Prokurorluq: "İtkin düşmüş daha bir hərbi qulluqçumuzun meyiti aidiyyəti üzrə təhvil verilib"

Vətən müharibəsində itkin düşmüş daha bir hərbi qulluqçu həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində tapılaraq, şəxsiyyəti müəyyənləşdirilməklə nəşinin aidiyyəti üzrə təhvil verilməsi üçün zəruri tədbirlər görülüb.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq, şəxsiyyətinin müəyyən edilməklə doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

Ötən il noyabrın 10-da üçtərəfli Bəyanat imzalandıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilib. Həmin xüsusat Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülüb, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Müdafiə və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət axtarış qrupları tərəfindən itkin düşmüş hərbi qulluqçularımızın axtarılaraq tapılması istiqamətində müntəzəm iş aparılıb.

İtkin düşmüş daha bir hərbi qulluqçunun - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Verdiyev Eldəniz Rabil oğlunun meyiti tapılaraq, şəxsiyyəti müəyyən edilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlərin görülməsi təmin olunub.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

## Azərbaycan mətbuatının nümayəndələri şəhid jurnalistlərin xatirəsini yad ediblər

İyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində həlak olan jurnalistlərin - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun xatirəsi ehtiramla yad olundu.

AZƏRTAC xəbər verir ki, Azərbaycan mətbuatının və ölkə ictimaiyyətinin nümayəndələri Şəhidlər xiyabanının yaxınlığında yaradılan xatirə guşəsini ziyarət etdilər, önünə gül dəstələri düzdülər.









## Respublika Veteranlar Təşkilatı beynəlxalq təşkilatları, aparıcı dövlətləri Ermənistanın mina terrorunu dayandırmağa çağırıb

Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti 2021-ci il iyunun 4-də Azərbaycan Televiziyasının operatoru, 1989-cu il təvəllüdlü Sirac Abışov və AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimovun Kəlbəcər rayonunun Susuzluq kəndində xidməti vəzifələrini yerinə yetirərkən minaya düşərək həlak olması ilə bağlı bəyanat verib. AZƏRTAC bildirir ki, beynəlxalq təşkilatlara, dünya birliyinə ünvanlanan bəyanatda deyilir:

"30 ilə yaxındır ki, Ermənistanın həyata keçirdiyi işğal siyasətinə 44 günlük Vətən müharibəsi və bu müharibənin nəticəsi kimi meydana çıxan 2020-ci il 10 noyabr tarixli Bəyanatla son qoyulsa da, erməni faşizminin mina terroru davam edir. Ermənistanın minalanmış ərazilərin xəritəsini hələ də Azərbaycana verməməsi mülki insanlar arasında tələfatların yaşanmasına, sadə vətəndaşların Ermənistanın hərbi cinayətlərinin qurbanına çevrilməsinə səbəb olur. Bu gün iki jurnalistimizin peşə fəaliyyətlərini həyata keçirən zaman mina partlayışı nəticəsində həlak olması, daha bir neçə mülki şəxsin yaralanması Ermənistanın terror fəaliyyətinə son qoymaq niyyətində olmadığını göstərir.

Təəssüf doğuran məqamlardan biri də Azərbaycan dövlətinin səylərinə rəğmən, bu günə qədər hər hansı beynəlxalq təşkilatın Ermənistanın mina terrorunun qarşısını almaq üçün əməli addım atmamasıdır. Nə qədər acınacaqlı da olsa qeyd etməliyik ki, Azərbaycan torpaqlarının 30 ilə yaxın müddətdə işğalda qalmasına göz yuman beynəlxalq təşkilatlar, dünyanın aparıcı dövlətləri bu gün də Ermənistanın mina terroru qarşısında səssiz qalmaqda, susqunluq sərgiləməkdədir. Halbuki Ermənistanın mina təxribatları cinayətkar dövlətə qarşı beynəlxalq sanksiyaların tətbiqini zəruri edir.

Hərbi cinayətlərini davam etdirən, mülki vətəndaşların qətlinə imza atan Ermənistanın cəzalandırılması, sadəcə, ədalətin deyil, həm də beynəlxalq hüququn tələbidir və bu tələbin icrası məhz əlaqədar beynəlxalq təşkilatlar tərəfindən təmin edilməlidir. Dünya birliyi anlamalıdır ki, Ermənistanın mina terrorunu davam etdirməsi bölgədə yeni bir gərginliyə yol açmaqla yanaşı, bütün regionda sülhün, sabitliyin bərqərar olması üçün ciddi maneədir. Ona görə də Respublika Veteranlar Təşkilatı olaraq bütün beynəlxalq təşkilatları, aparıcı dövlətləri Ermənistanın mina terrorunu dayandırmağa, bunun üçün beynəlxalq hüquq və konvensiyaların imkanlarından istifadə etməyə səsləyirik. Xatırlatmaq istəyirik ki, beynəlxalq təşkilatların susqunluğu fonunda davam edən mina terroruna görə məsuliyyət Ermənistanla yanaşı, həm də bu qətliama tamaşaçı mövqeyindən yanaşan, onu önləmək üçün heç bir addım atmayan beynəlxalq qurumların üzərinə düşür.

Ümid edirik ki, beynəlxalq təşkilatlar heç olmasa bundan sonra bu məsələdəki hüquqi və mənəvi məsuliyyət payını dərk edəcək, mina terrorunu davam etdirən, beynəlxalq hüquqa, təməl insan haqlarına meydan oxuyan Ermənistana təzyiq göstərməklə, onun terror fəaliyyətinin qarşısını almaq üçün əməli addımlar atacaq".

## Ermənistan beynəlxalq öhdəliklərini kobud şəkildə pozmaqda davam edir

# Azərbaycan İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə ikinci dövlətlərarası şikayəti göndərərək Ermənistandan minalanmış sahələrin xəritələrini verməsini tələb edib

**Azərbaycan işğaldan azad edilmiş ərazilərdə insanların həyatı üçün təhlükə yaradan minaların yerlərinə dair Ermənistanın müvafiq xəritələri təqdim etməkdən imtinası ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə (İHAM) dövlətlərarası şikayət göndərib.**

AZƏRTAC xəbər verir ki, bu müraciət Ermənistana qarşı ikinci dövlətlərarası şikayət olmaqla bu ölkəyə beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməsi istiqamətində təzyiqi artıracaq.

Ermənistan və Azərbaycan arasındakı bütün hərbi əməliyyatlara son qoymuş 2020-ci il 10 noyabr tarixli birgə Bəyanatın imzalandığı vaxtdan etibarən Azərbaycan dəfələrlə Ermənistandan minalanmış ərazilərin xəritələrini verməyi tələb edib.

2021-ci ilin fevralında Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş katibinə müraciət edərək Ermənistanın minalanmış ərazilər barədə məlumatları açıqlaması üçün edilən çağırışlara dəstək verilməsini xahiş edib.

Azərbaycanın İHAM yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov məsələ ilə bağlı bunları deyib: "Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtinasının heç bir strateji, hüquqi və ya mənəvi əsasları yoxdur və yeganə məqsəd bölgədə Azərbaycan əhalisinin həyatına qəsd etməkdir. Həmçinin Ermənistanın hərəkətləri azad olunmuş torpaqlarda yaşayan ermənilərin həyatını təhlükə altına qoyur. Biz bir daha Ermənistandan minalanmış ərazilərin xəritələrini və digər müvafiq məlumatları təqdim etməklə beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyi tələb edirik. Ermənistanın bu vəziyyəti davam etdirməsi nəzərə alınaraq Avropa Məhkəməsini müdaxilə etməyə çağırırıq".

Azərbaycanın insanların həyatını xilas etmək səylərinə kömək edə biləcək bu xəritələri və digər zəruri məlumatları Ermənistanın təqdim etməkdən imtinası Azərbaycan əhalisinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolunun 1-ci maddəsi, 4 saylı Protokolunun 2(1) və 3(2) maddələrindən irəli gələn hüquqlarının ciddi şəkildə pozulmasına səbəb olur.

Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular birgə Bəyanat imzalandığı gündən bəri 120-dən çox insanın həlak olmasına və ya yaralanmasına səbəb olub. Birgə Bəyanat imzalandıqdan sonrakı 200 gün ərzində işğaldan azad edilmiş ərazilərdə təxminən 100 milyon kvadratmetr sahədə 35.000-dən çox minanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir. Minalanmış ərazilərin xəritələrinin təhvil verilməsindən imtina edilməsi Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində zorla öz yurdlarından ayrı düşmüş məcburi köçkün ailələrinin təxminən 30 il sonra öz evlərinə qaytarılması səylərinə də mane olur.

# Çingiz ƏSGƏROV: "Azərbaycanın Avropa Məhkəməsinə verdiyi vəsatət təmin edilmişdir"

**Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Ermənistana qarşı ikinci dövlətlərarası şikayət göndərib.**



AZƏRTAC xəbər verir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov şikayətlə bağlı şərhində deyib: "Şikayətdə göstərilir ki, Ermənistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki minaların xəritələrini təqdim etməkdən imtinası Azərbaycan vətəndaşlarının İnsan Hüquqlarına dair Avropa Konvensiyasının bir sıra müddəalarında nəzərdə tutulmuş hüquqlarının pozulmasına gətirib çıxarır.

Qeyd olunmalıdır ki, Azərbaycan hazırkı dövlətlərarası şikayəti Avropa Məhkəməsinə təqdim edərək, onun Azərbaycanın Ermənistana qarşı 2021-ci il 15 yanvar tarixli birinci dövlətlərarası şikayəti ilə bir icraat çərçivəsində baxılması barədə vəsatət vermişdir.

Eyni zamanda bu şikayətlə bərabər, Avropa Məhkəməsinə Ermənistanın üzərinə minaların xəritələrinin təqdim etməsinə dair öhdəlik qoyulmaqla barəsində müvəqqəti təminat tədbirlərinin görülməsi haqqında müraciət ünvanlanmışdır.

Avropa Məhkəməsindən daxil olmuş cavab məktubunda bildirilir ki, işə baxan Böyük Palatanın sədri şikayəti öyrənərək ona Azərbaycanın Ermənistana qarşı 2021-ci il 15 yanvar tarixli dövlətlərarası şikayətinin ayrılmaz tərkib hissəsi kimi baxılması qərarına gəlmişdir. Bununla da Azərbaycanın Avropa Məhkəməsinə verdiyi vəsatət təmin edilmişdir.

Həmçinin Avropa Məhkəməsi bildirmişdir ki, müvəqqəti tədbirlərin görülməsi barədə sorğuya məhkəmədə 2021-ci il mart ayında artıq baxılmış və qəbul edilmiş qərar dəyişdirilmədən saxlanılmışdır.

Xüsusi vurğulanmalıdır ki, Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular birgə Bəyanat imzalandığı 2020-ci il noyabrın 10-dan 130-a yaxın insanın həlak olmasına və ya ciddi yaralanmasına səbəb olmuşdur.

İyunun 4-də Azərbaycanın Kəlbəcər rayonunda 3 mülki şəxsin, o cümlədən 2 jurnalistin minaya düşərək həlak olması və digər 4 nəfərin xəsarət alması göstərir ki, azad edilmiş ərazilərdə minaların qurbanlarının sayı hər gün artır. Beynəlxalq təşkilatlar, o cümlədən Avropa Məhkəməsi bu məsələyə xüsusi diqqət yetirməlidir.

# AZƏRTAC peşəkar əməkdaşı Məhərrəm Əlioğlu ilə vidalaşır

Dünən səhər qəfil və acı xəbər AZƏRTAC-ın kollektivini, media ictimaiyyətini sarsıtdı: agentliyimizin Qarabağda xidməti ezamiyyətdə olan müxbiri Məhərrəm Əlioğlu və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov minaya düşərək həlak olublar...



Məhərrəm İbrahimov (Əlioğlu) həyatsevər və nikbin insan, peşəsinə qəlbən bağlı, vətənpərvər jurnalist idi. O, 44 günlük Vətən müharibəsinin ilk günündən cəbhə xəttinə yollanaraq hərbi əməliyyatların gedişini işıqlandırır, Ermənistanın müharibə cinayətləri, mülki insanları hədəfə alması barədə birbaşa hadisə yerindən xəbərlər, reportajlar hazırlayıb göndərirdi. Ümumiyyətlə, peşəkar jurnalist olaraq daim qaynar nöqtələrə, hadisələrin mərkəzində olmağa can atırdı.

Müharibə başlayandan qurtarana qədər, hətta bu acı xəbəri eşitdiyimiz günədək onunla görüşüb, doyunca söhbət edə bilmədik. Sorağı işğaldan azad edilmiş ərazilərdən - Füzulidən, Cəbrayıldan, Ağdamdan, Qubadlıdan gəlirdi. Hər dəfə ayaqüstü söhbətlərimizdə "tezliklə gələcəyəm, görüşərik" deyirdi. Qarabağa tələsirdi, erməni vandallarının viran qoyduğu qədim yurd yerlərimizi jurnalist həmkarları ilə birlikdə kəndbəkənd gəzib dağıntıları lentə alır, yazıya köçürürdü ki, bu dəhşətlərdən gələcək nəsillər də xəbər tutsun. Müharibədən sonra da hərbi formanı əynindən çıxarmayan AZƏRTAC-ın peşəkar müxbiri Məhərrəm Əlioğlu və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov beləcə şəhadətə ucaldılar. Tarix yazan həmkarlarımız erməni məkrinin qurbanı oldular.

Nə az, nə çox, bu dünyanın cəmi 39 baharını yaşayan Məhərrəm Əli oğlu İbrahimov 1982-ci il aprelin 16-da Ermənistanın Krasnoselo rayonunun Ardanış kəndində anadan olub. 1989-cu ildə Binəqədi rayonu Rəsulzadə qəsəbəsində 100 saylı orta məktəbin birinci sinfinə gedib. 1999-cu ildə orta məktəbi bitirərək Ali İctimai-Siyasi Kollecin Jurnalistika fakültəsinə daxil olub. 2003-cü ildə ali məktəbi bitirib və həqiqi hərbi xidmətə yollanıb. 2004-cü il iyulun 15-də həqiqi hərbi xidmətini Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında başa vurub.

2004-cü il sentyabrın 1-dən AZƏRTAC-da müxbir, 2007-ci il yanvarın 16-dan aparıcı müxbir vəzifəsində çalışıb.

AZƏRTAC-da işlədiyi bu illər ərzində Məhərrəm Əlioğlu bir əsgər ömrü yaşayıb. Ən qaynar nöqtələrdən ən operativ xəbərləri çatdıranlardan biri məhz Məhərrəm olub. Qarşıda böyük planları, arzuları vardı... Təəssüf ki, düşmən minası onun da arzularını yarıda qoydu.

Məhərrəm Əlioğlu qələm adamı, peşəkar jurnalist olmaqla yanaşı, həm də vəfalı, sadiq dost idi. Çətinə düşənlərə imkanı daxilində kömək əli uzadar, həmkarlarının xoş günlərinin sevincini ürəkdən bölüşərdi. Cavan olmasına baxmayaraq, təmkinli davranışı, ünsiyyət yaratmaq qabiliyyəti ilə insanların qəlbinə tez yol tapırdı.

İki oğul atası idi Məhərrəm. Onları da özü kimi vətənpərvər böyütmək istəyirdi. Övladları - 7 yaşlı Uğur və 5 yaşlı Toğrulla bağlı böyük arzuları vardı...

AZƏRTAC-ın kollektivi Məhərrəm Əlioğlunun timsalında sevimli, dəyərli əməkdaşını itirdi. Lakin bir təsəllimiz var: bu itki bizim üçün, ailəsi və doğmaları üçün nə qədər ağrılı olsa da, Məhərrəmin arzularına işıq tutacaq gülüzlü övladları var. Nə qədər Məhərrəm Əlioğlu kimi vətənpərvər oğullarımız var, Azərbaycan heç vaxt düşmən qarşısında geri çəkilməyəcək.

AZƏRTAC-ın kollektivi düşmən minasına düşərək şəhadətə ucalan həmkarlarımız Məhərrəm Əlioğlunun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

# Azərbaycanlı jurnalistlərin ermənilərin basdırdığı minanın partlaması nəticəsində həlak olmaları ilə bağlı məlumatlar dünya KİV-inin diqqət mərkəzindədir

Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olmaları və yaralanmaları ilə bağlı məlumatlar dünyanın aparıcı informasiya agentliklərinin və xəbər resurslarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, qardaş Türkiyə mediası azərbaycanlı jurnalistlərin Kəlbəcərdə mina partlaması nəticəsində həyatlarını itirməsi ilə bağlı xəbərlərə geniş yer ayırıb. Türkiyənin "Anadolu" Agentliyi, "Haber Global" televiziya kanalında verilən informasiyalarda deyilir ki, Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi hərbçilərlə yanaşı, dinc insanların, o cümlədən öz xidməti vəzifələrini icra edən media mənsublarının da həyatını təhlükə altına atır.

Bu hadisə ilə bağlı Rusiyanın TASS, Ria Novosti informasiya agentliklərində və BBC-nin Rusiya bölməsində dərc olunan xəbərlərdə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun Kəlbəcər rayonu ərazisində mina partlaması nəticəsində həlak olduqları bildirilir, həmçinin sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi ilə bağlı məlumatlar verilir.

Ukrayna kütləvi informasiya vasitələri də Ermənistanın mina xəritələrini verməməsi nəticəsində Kəlbəcərdə iki azərbaycanlı jurnalistin həlak olması ilə nəticələnmiş son hadisəyə xüsusi yer ayırıb. "Ukrinform", "RBK-Ukraina", "24tv.ua", "gordonua.com", "correspondent.net" kimi media platformaları hadisə ilə bağlı informasiyalar yayıb. Xəbərlərdə bildirilir ki, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq Ermənistandan minalanmış ərazilərin xəritələrini tələb edir. Ermənistan isə bundan israrla imtina edir.



Kəlbəcərdə baş vermiş mina partlayışı və dinc insanların həlak olması ilə bağlı xəbərlər, həmçinin ərəb mətbuatının da diqqət mərkəzində olub. Bununla bağlı "aljazeera.com" saytında, Misirin "Yeni dünya xəbərləri", "Al-diplomacy", Səudiyyə Ərəbistanının "Səda", "Əl Vətən" informasiya portallarında, "Okaz" qəzetində xəbərlər dərc edilib.

İranın İRNA rəsmi dövlət xəbər agentliyində dərc olunan məlumatda isə bildirilir ki, Ermənistanın yollara basdırdığı mina mülki əhali arasında da itkilərə gətirib çıxarır.

Avstraliyanın "news.com.au", "australiannewsreview.com", "adelaidenow.com.au" saytları da Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində ikisi jurnalist olmaqla üç dinc sakinin həlak olması ilə bağlı materiallar yayıb.

5 İyun Ətraf Mühitin Mühafizəsi Günüdür

# Təbiətə ana desək də...

## Təəssüf ki, hələ də ona övlad ola bilmirik



Əvvəli 1-ci səh.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi də həmin tarixi günə hər il öz töhfəsini verir, müxtəlif tədbirlər həyata keçirir.

Son 30 il ərzində Azərbaycan təbiətinə qənim kəsilən erməni vandalizminin törətdiyi fəlakət isə artıq dünya ictimaiyyətinə məlumdur. İşğal altında olmuş Azərbaycanın 25 faiz meşə massivinə, həmin ərazilərdəki ekoloji mühitə, təbii sərvətlərə, bioloji müxtəlifliyə Ermənistanın qəsdi təkcə milyard dollarla hesablanmır, həm də bəşəri fəlakət səviyyəsindədir. Bu az imiş kimi Azərbaycan, Ermənistan və Rusiya arasında 10 noyabr 2020-ci il tarixdə əldə edilmiş üçtərəfli razılaşmaya əsasən, ermənilər qanunsuz olaraq məskunlaşdıqları əraziləri tərk edərkən də ölkəmizin özünəməxsus ekosistemini məqsədli şəkildə məhv etdilər, ağacları kütləvi şəkildə kəsdilər, evləri yandırdılar. Şuşa şəhərinin meşə zolaqlarının zəhərli maddələrdən istifadə edilərək yandırılması da təcavüzkar ölkənin qeyri-insani mahiyyətini bir daha ortaya qoydu. Bunun nəticəsidir ki, işğal müddətində təqribi hesablamalara görə, ümumilikdə, 1815 hektar meşə sahəsi məhv edilib. Hansı ki, işğalçı ölkənin təbiətə və ekologiyaya vurduğu zərər Ermənistanın 2002-ci ildən tərəfdaşı olduğu İqlim Dəyişikliyi üzrə BMT Çərçivə Konvensiyasının müddəaları ilə də qadağan edilir.

Təbiəti mühafizə işlərini Heydər Əliyev Fondu və onun vitse-prezidenti Leyla Əliyeva daim diqqətdə saxlayır. Bilavasitə fondun rəhbərliyi ilə Abşeronda və Azərbaycanın digər bölgələrində hər il ağacəkmə kampaniyası geniş vüsət alır. İldə 100 mindən çox ağac əkilir. Leyla Əliyevanın təşəbbüsü ilə Xəzər dənizinin və onun çimərliklərinin çirklənməsinə qarşı tədbirlər aparılır.

Ekoloji tarazlığın pozulmasının sonunun fəlakət olması artıq dünyanın ciddi narahatlığına səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il sentyabrın 19-da "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində yerli televiziya kanallarına müsahibə verərkən bir daha qeyd etdi ki, ölkəmizdə neft hasilatı ciddi ekoloji problemlər meydana gətirib. Lakin ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində məhz dövlət başçısının göstərişi ilə genişmiqyaslı işlər həyata keçirilir: "Ekoloji layihələr hələ ki, bitməyib, hələ görüləsi işlər çoxdur. Hazırda Abşeron yarımadasında neft gölməçələrinin təmizlənməsi işi gedir. Mən tapşırıq vermişəm ki, bütün neft mədənlərində təmizləmə işləri aparılsın, orada ağaclar əkilsin, - necə ki, burada, Bibiheybətdə. Biz ekoloji fəlakət zonalarını ekoloji cənnət zonalarına çevirməliyik, bunu edirik və edəcəyik".

Təbiətin xilası bu gün deyil, hələ ötən əsrin ortalarından dünya ekoloqlarını ciddi narahat edirdi. Ona görə də Ümumdünya Təbiəti Mühafizə Cəmiyyəti 1948-ci ildən başlayaraq fəaliyyət göstərir. Cəmiyyət özündə 82 dövləti, 111 dövlət qurumunu, 800-dən artıq qeyri-hökumət təşkilatını və dünyanın 181 ölkəsindən olan çoxminli alim və eksperti özündə birləşdirir. 1972-ci ildə BMT Baş Məclisinin qətnaməsi əsasında yaradılan Ətraf Mühit Proqramının məqsədi indiki və gələcək nəsillər üçün ətraf mühiti və təbiəti qorumaq, bu istiqamətdə ciddi işlər aparmaqdır. Müxtəlif ölkələrdə altı böyük regional ofisi fəaliyyət göstərən UNEP Qlobal Ekoloji Fondun həmtəsisçilərindəndir və onun himayəsi altında da hər il dünyada Beynəlxalq Ətraf Mühit Günü qeyd edilir.

İqlim dəyişikliyi, ozon qatı, ümumiyyətlə, təbii və texnogen problemlər, onların törətdiyi fəsadlar haqqında dünyada gedən qızğın müzakirələr, planetimizin gələcəyinin qeyri-müəyyənliyi insanları həmişə düşündürür. Əgər təbiətə bu cür münasibət davam etdirilərsə, yaxın bir necə onillikdən sonra insanları fəlakət gözləyir.

Müxtəlif ölkələrdə meşələr məhv edilir, süni göllər və su tutarlar yaradılır, bir çox səbəblərdən Yer səthinin landşaftı dəyişir. Meşələrin, xüsusən tropik meşələrin sahəsi ildə 200 min hektar azalır, səhraların sahəsi isə ildə 60 min kvadratkilometr artır. Hazırda təbii ekosistemlərin yalnız 40 faizə qədəri pozulmayan qalmışdır.

Dünyada torpaqlardan səmərəsiz istifadə edilməsi nəticəsində onun şorlaşması, eroziyaya uğraması, münbitliyin aşağı düşməsi baş verir. Torpağa, suya, havaya zəhərli maddələr daxil olur. Okean sularının səviyyəsi ildə 2 millimetrdən 1 santimetrədək qalxır. Texnogen qəzalar və təbii fəlakətlərin sayı, onların təsiri nəticəsində ziyanlar çoxalır, ölənlərin sayı ildə 5-10 faiz artır.

Ətraf mühitin mühafizəsi naminə Beynəlxalq Dialoq (IDEA) İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə keçirilən tədbirlərdə ətraf mühit və faunanın qorunması məsələləri həmişə gündəmdədir. IDEA İctimai Birliyi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 12 iyul 2011-ci il tarixindən fəaliyyətə başlayıb. Təşkilatın əsas məqsədi ətraf mühit məsələləri və ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün həllər tapmaqdır.

Gəlin heç bir gözəlliyi bizdən əsirgəməyən ana təbiətə və onun bütün sərvətlərinə doğma münasibət bəsləyək, qayğı, sevgi və məhəbbətlə yanaşaq, onları qoruyub saxlamağa çalışaq, gələcək nəsillərə təqdim etmək üçün əlimizdən gələni əsirgəməyək. Təbiətə qarşı düşmənçilik mövqeyindən əl çəkək, ekoloji genosid törətməyək və heç vaxt bir də onu yaralamayaq.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Əlilliyin qiymətləndirilməsində yeni meyarlar müəyyənləşib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ölkədə əlillik təyinatı sistemində ilk dəfə olaraq köklü dəyişikliklərin edilməsini, əlilliyin mütərəqqi dünya təcrübəsinə uyğun daha təkmil qiymətləndirilməsini hədəfləyən yeni "Əlilliyin müəyyən olunması meyarları" ilə əlaqədar hazırlanmış qanunvericilik layihələrinin paketi artıq Milli Məclisə təqdim edilib.**

Gələn ildən tətbiqi nəzərdə tutulan yeni meyarlarla əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında, həm də xəstəliyin ağırlıq dərəcəsi nəzərə alınmaqla təyin olunacaq. Yəni,

*İ dərəcə - orqanizmin funksiyalarının 81-100 faiz itirilməsi,*

*İİ dərəcə - orqanizmin funksiyalarının 61-80 faiz itirilməsi,*

*İİİ dərəcə - orqanizmin funksiyalarının 31-60 faiz itirilməsi*

kimi müəyyən ediləcək. Həmçinin sağlamlıq imkanları məhdudluq da bu əsasda təyin olunacaq.

Əlilliyin qiymətləndirilməsi şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülməklə aparılacaq.

Qüvvədə olan 94 normativ hüquqi akt bu dəyişikliklərə uyğunlaşdırılacaq, o cümlədən "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri "18 yaşınadək əlilliyi olan şəxslər" sözləri ilə əvəzlənəcək. Geridönməz halları olan uşaqlara əlillik 18 yaşa qədər deyil, müddətsiz təyin ediləcək.

Yeni "Əlilliyin müəyyən olunması meyarları"nın hazırlanmasında əsas məqsəd əlillik təyinatlarında həssas və obyektiv yanaşmanın, ünvanlılıq və sosial ədalətin təmin edilməsidir. Bu meyarlar eyni zamanda əlillik təyinatı sahəsində qabaqcıl beynəlxalq standartların tətbiqinə, xidmətin keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsinə, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının artırılmasına xidmət edir.

## Azərbaycanda ilk dəfə Saatlıda əkilən kinoa bitkisi sahəsindən yüksək çıxış alınıb

**Azərbaycanda ilk dəfə Saatlı rayonunda əkilən kinoa bitkisi sahəsindən yüksək çıxış alınıb. "Bəşəriyyətin xilaskarı" adlandırılan bu bitki bölgə iqliminə uyğunlaşdığı üçün kütləvi şəkildə əkini planlaşdırılır.**



AZƏRTAC xəbər verir ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin gücləndirilməsi və yem bazasının daha da inkişaf etdirilməsi üçün qeyri-ənənəvi bitkilərin regionlara uyğunlaşdırmaqla sınaq əkini həyata keçirilir. Bu sahədə Əkinçilik və Elmi-Tədqiqat İnstitutunun alimləri həm yerli, həm də xarici sort toxumların pilot əkini üçün layihələr həyata keçirirlər. Saatlıda da bir neçə növ qeyri-ənənəvi bitkinin əkini aparılıb. Bunlar arasında ilk dəfə əkilən kinoa bitkisindən yüksək çıxış əldə olunub.

Əkinçilik və Elmi-Tədqiqat İnstitutunun əməkdaşı Sevil Abbasquliyeva deyir ki, kinoanın tərkibində yüksək protein var. Bu baxımdan qida məhsulu kimi çox əhəmiyyətli bitkidir. Sınaq üçün darı, soya, sorqo, amarand və digər bitki toxumları da əkilib. Əsas diqqəti çəkən bitkilərdən biri də sorqodur. Sorqo, əsasən, quraqlığa dözümlü olması ilə seçilir. Bundan başqa, sınaqdan uğurlu çıxan bitkilərdən biri də amarandır. Yüksək məhsuldarlığı malikdir və yem kimi istifadə olunmaqla yanaşı, dərman preparatlarının hazırlanmasında da faydalıdır. Saatlı rayonu aran bölgəsi olduğu üçün burada, əsasən, susuzluğa və quraqlığa dözümlü bitki toxumları əkilib.

Sınaq əkini aparılan bitkilərin fermerlərə təqdimatı üçün nümayiş də keçirilib. Saatlı və ətraf rayondan olan təsərrüfat sahibləri dəvət olunaraq həmin bitkilərin əkilməsinin əhəmiyyətli tərəfləri onlara izah edilib. Fermerlər qeyri-ənənəvi bitkilərin üstün cəhətləri ilə tanış olublar.

● TAXIL BİÇİNİ



# Arpanı sütül...

**Dünyada əhalinin sürətlə artması ilə ərzaq məhsullarına olan tələbat da çoxalıb. Hətta o dərəcədə ki, təklif bu artımın öhdəsindən gələ bilmir. Bu səbəbdən dünya bazarında ərzaq məhsullarının qiymətləri də bahalaşır. Bahalaşma isə insanların ərzağa əlçatanlığını azaldır.**

BMT-nin Dünya Ərzaq Təşkilatının (FAO) məlumatına görə, qiymətləri bahalaşan kənd təsərrüfatı məhsulları sırasında taxıl ön yerlərdədir. Odur ki, taxıl istehsalı strateji sahə sayılır. O üzdən bu gün dünyanın bir çox ölkəsinin taxıla olan tələbatı ödəmək üçün əkin sahələrini genişləndirməsi təsadüfi deyil.

Ölkəmizdə də taxılçılığın inkişafına önəm verilir. Bu sahə ilə məşğul olan fermerlərə daim dövlət səviyyəsində xüsusi dəstək verilir. Dövlət tərəfindən ilk dəfə subsidiya ödənilən sahə də məhz taxılçılıqdır. Belə tədbirlər sayəsində son bir neçə ildə ölkə üzrə taxılçılıqda istehsal artmaqda davam edir. Özü də məhsuldarlıq hesabına. Belə ki, əvvəllər taxılçılıqda məhsuldarlıq hər hektardan 20 sentner olduğu halda, hazırda bu rəqəm 30 sentnerə çatıb. Yüksəkkeyfiyyətli toxum və texnikadan istifadə edən iri fermer təsərrüfatları və aqroparklar isə hektardan 50-60 sentnerə qədər məhsul götürür.

Ölkədə bu ilin taxıl biçini mövsümünə artıq başlanılıb. Fermerlər min bir əziyyət çəkərək bol məhsul yetişdiriblər. İndi əsas məsələ məhsulu vaxtında və itkisiz yığmaqdır. Dövlət bu sahədə də fermerlərə dəstək verir. Məsələn, vaxtında dünyanın inkişaf etmiş ölkələrindən alınan keyfiyyətli taxılbiçən kombaynlar fermerlərə işdə çox kömək edir.

Biləsuvar rayonunda ötən ilin payızında 16 min 860 hektar sahədə taxıl əkilib. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumatda bildirilir ki, bunun 5 min 708 hektarı buğda, 11 min 552 hektarı arpa əkinləridir. Artıq fermerlər fərdi təsərrüfatlarında taxıl biçininə başlayıb və biçdikləri ilk hektarların hərəsindən 34 sentner məhsul götürüblər. Biçin ilk olaraq arpa sahələrində aparılır. Yığım kampaniyasının vaxtında və itkisiz başa çatdırılması üçün lazımi tədbirlər görülür. Sahələrə 61-ə yaxın kombayn çıxarılıb, məhsulun daşınması və digər işlərin həlli üçün 250-dən çox maşın və mexanizm cəlb olunub. Mütəxəssislər fikrincə, bu il rayonda təxminən 70 min ton məhsul istehsal etmək mümkündür.

Şəki ölkəmizin iri taxılçılıq rayonlarındandır. Burada cari mövsümdə 66 min 104 hektar taxıl sahəsinin məhsulunun biçilməsi nəzərdə tutulur. Taxıl sahələrinin 36 min 180,3 hektarında buğda, 29 min 923,7 hektarında dən üçün arpa əkilib.

Təsərrüfatlarda taxıl biçininə hazırlıq işləri yekunlaşmaq üzrədir. Biçin kampaniyasını uğurla başa çatdırmaq üçün 136 taxılbiçən kombayn cəlb ediləcək. Onlardan 90-ı son illər alınan təzə, qalanları isə əvvəlki, lakin istifadəyə tam yararlı kombaynlardır. Ehtiyac yaranarsa, biçini başa çatdırmış rayonlardan əlavə kombaynlar da gətiriləcək. Qeyd edək ki, fermerlər ötən il 66 min 48 hektardan 199 min 915 ton məhsul götürüblər. Hər hektardan orta məhsuldarlıq 30,3 sentner olub.

Ucar rayonunun taxılçıları isə biçinə başlayıblar. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, cari mövsümdə Ucarda 14 min 414 hektar sahədə taxıl yetişdirilib. Zəmilərin 6457 hektarından buğda, 7957 hektarından isə arpa biçiləcək. Hazırda bütün qüvvələr taxılın vaxtında və itkisiz yığılmasına səfərbər edilib. Arpa biçini getdikcə sürətlənir. 13-ü "Ucar aqroservis" ASC-yə, 8-i fiziki şəxslərə məxsus, habelə daha 2 kombayn zəmilərdə biçinlə məşğuldur.

Builki mövsümdə Zaqatala rayonunda 11 min 396 hektar taxıl sahəsinin məhsulunun biçilməsi gözlənilir. Taxıl əkinlərinin 7 min 819 hektarını buğda, 3 min 577 hektarını arpa sahələri təşkil edir. Payızlıq dənlilərin əkin sahəsi əvvəlki illə müqayisədə 76 hektar artırılıb. Hazırda təsərrüfatlarda taxıl biçininə son hazırlıq işləri görülür. Taxıl anbarları, xırmanlar təmir və dezinfeksiya olunub, kombayn və digər texnikalar hazır vəziyyətə gətirilib.

Rayonda biçin kampaniyasına 28 taxılbiçən kombayn, 39 küləş presləyən aqreqat, həmçinin 360-dək şum traktoru, 126 traktor qoşqusu və digər texnika cəlb edilib. Biçin dövründə ehtiyac yaranarsa, digər rayonlardan əlavə olaraq 8-10 kombayn da gətiriləcək.

Xatırladaq ki, ötənilki mövsümdə Zaqatala rayonunda 11 min 320 hektar sahənin məhsulu biçilib, 35 min 50 ton taxıl istehsal edilib. Hər hektara görə orta məhsuldarlıq 31 sentner olub. Taxıl istehsalı ondan əvvəlki illə müqayisədə 1881 ton artıb.

Bu il, ümumilikdə, ölkə üzrə 986 min 685 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Əkin sahələrinin 611 min 967,3 hektarı buğda, 374 min 717 hektarı arpa sahələridir. Hazırda təxminən 30 rayonda arpa biçilir. İyunun 1-nə olan operativ məlumata görə, artıq 19666 hektar sahədə biçin aparılıb. Sahələrdən 54 min 600 ton məhsul yığılıb. Biçinin start mərhələsində arpa üzrə orta məhsuldarlıq 27,8 sentnerdir. Ən çox biçin ənənəvi olaraq mövsümə birinci başlayan Neftçala rayonunda aparılıb. Biləsuvar, Saatlı, Sabirabad və Cəlilabad rayonlarında da biçin sürətlənir.

İyunun 1-nə olan operativ məlumata görə, biçinə 856 kombayn cəlb olunub. Aktiv biçin prosesində "Aqroservis" ASC-nin yerli bölmələrinin 289, fiziki və hüquqi şəxslərin 429 kombaynı iştirak edir. Bundan başqa, "Aqroservis" ASC tərəfindən biçin gedən rayonlara hazırda biçin aparılmayan dağətəyi və dağlıq ərazilərdə yerləşən bölgələrdən əlavə 138 kombayn dislokasiya olunub. "Aqroservis"in kombaynları vasitəsilə 9409, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlar vasitəsilə 10 min 257,4 hektar sahədə biçin aparılıb.

Qeyd edək ki, "Aqroservis" ASC-nin kombaynları sahəsi 50 hektaradək olan kiçik və orta təsərrüfatlarda biçin həyata keçirir. Bu il taxıl sahələrinin 78 faizi məhz kiçik təsərrüfatların payına düşür. Biçin prosesi növbəlilik prinsipi əsasında aparılır.

Hazırda "Aqroservis"in rayon bölmələrində 650, təchizat bazalarında isə 135 taxılbiçən kombayn var. Kombaynların hamısı saz vəziyyətdədir. Bundan başqa, biçin prosesində fiziki və hüquqi şəxslərə məxsus 1000-dən artıq kombaynın iştirakı gözlənilir. Kombaynlara olan tələbatın əvvəldən müəyyən edilməsi, texnikaların biçindən qabaq tələbata uyğun rayonlarda dislokasiyası, "Aqroservis" ASC tərəfindən sosial biçin siyasətinin həyata keçirilməsi ötən illərdə olduğu kimi, bu il də biçin prosesində texnika ilə təminatda problem olmayacağını söyləməyə əsas verir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## DGK 5 aylıq büdcə öhdəliyinə artıqlaması ilə əməl edib

**İlkin məlumata görə, Dövlət Gömrük Komitəsi (DGK) cari ilin yanvar-may ayları üzrə nəzərdə tutulan büdcə öhdəliyinə 114,18 faiz əməl edib.**

Bu barədə DGK sədri Səfər Mehdiyev deyib. Komitə sədri bildirib ki, nəzərdə tutulan proqnozdan əlavə 206,34 milyon manat gömrük ödənişlərinin toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunub.

## Tərtərli kümçülər barama tədarükünə başlayıblar

**Tərtər rayonunda barama tədarükünə başlanılıb. Mövsümün ilk günündə kümçülər 1550 kiloqram məhsulu "Azəripək" MMC-nin nümayəndələrinə təhvil veriblər.**

AZƏRTAC xəbər verir ki, bu il rayon kümçülərinə 350 qutu ipəkqurdu toxumu paylanılıb. Kümçülər ipəkqurdularının bəslənməsində çətinlik çəkməyiblər. Yemləmə zamanı mövcud tut ağacları ilə yanaşı, yeni əkilən ağacların yarpağından da istifadə edilib. Tərtər kümçüləri artıq bir ay ərzində çəkdikləri zəhmətin bəhrəsini görürlər. Bu il rayon üzrə 15 tondan çox barama istehsalı proqnozlaşdırılır.

## İşğaldan azad edilmiş ərazilərdə əlavə su mənbələri yaradılır

**"Meliorasiya və Su Təsərrüfatı" ASC işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Cəbrayıl rayonları ərazisində əlavə su mənbələrinin yaradılması ilə bağlı qiymətləndirmə işləri aparır.**

AZƏRTAC xəbər verir ki, bunu "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədr müavini Rafiq Aslanov jurnalistlərə müsahibəsində deyib. R.Aslanov bildirib ki, həmin rayonlarla yanaşı, Kəlbəcər rayonunda da əlavə su mənbələri var. "Tərtər çaydan başqa Bəsit çayı, Həkəri çayı, Bazar çayı mövcuddur. Biz çalışırıq ki, oralarda suyun toplanması üçün tədbirlər görək. Bunun üçün müəyyən işlər aparmışıq və gələn həftə hökumətə təqdim etmək istəyirik. Həkəri çayı üzərində su anbarı tikmək mümkündür. Bunun üçün təklifimizi hazırlamışıq. Cəbrayıl rayonu ərazisində "Xudafərin" su anbarının tutumu 1,6 milyard kubmetrdən çoxdur. Ondan 13 kilometr aşağıda isə su tutumu 62 milyon kubmetr olan "Qız Qalası" su anbarı yerləşir. "Xudafərin" su anbarında 100 meqavat elektrik enerjisi, "Qız Qalası" su anbarlarında isə 40 meqavat enerji istehsalı nəzərdə tutulur. Bu su anbarları eyni zamanda suvarma üçün çox önəmlidir. "Xudafərin" su anbarı vasitəsilə 250 min hektardan çox sahənin su təminatı yaxşılaşacaq. "Qız Qalası" su anbarından isə saniyədə 50 kubmetr axını olan yeni kanalın çəkilməsi nəzərdə tutulur. Bununla da Cəbrayıl rayonu ərazisində 12 min hektar sahədə suvarma həyata keçiriləcək", - deyə R.Aslanov bildirib.

## Yardımlıda 1620 hektarda yazlıq bitkilər əkilib

**Yardımlı rayonunda 2021-ci ilin məhsulu üçün yazlıq bitkilərin əkin kampaniyası başa çatmaq üzrədir.**



Statistik hesabatlara əsasən, 2021-ci ilin məhsulu üçün iyunun 1-dək rayonda 1620 hektar sahədə müxtəlif növ yazlıq bitkilər əkilib. Yazlıq əkin kampaniyasında rayonun Ərsilə, Avaş və Urakəran ərazi nümayəndəliklərinin təsərrüfatları daha fəal iştirak edirlər.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Yardımlı Rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, yazlıq əkin sahəsinin 843,5 hektarını kartof, 589,1 hektarını dənli və dənli paxlalı bitkilər, 11,2 hektarını tütün, 176,2 hektarını isə müxtəlif növ tərəvəz bitkiləri təşkil edir.

Rayonda ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,6 hektar çox əkin aparılıb.

Hazırda 2021-ci ilin məhsulu üçün yazlıq bitkilərin əkini nisbətən dağlıq olan ərazilərdə davam etdirilir.

# Şəhərin abadlığı küçə və prospektlərindən məlum olur

**Bakının dünyada ən gözəl və bənzərsiz şəhərlərdən biri olduğunu heç kəs inkar edə bilməz. Müasirliklə qədimliyin qol-boyun olduğu bu şəhər getdikcə böyüyür və daha çox göz oxşayır. Həm də onun cəlbediciliyi təkcə yeni tikililəri, müasir sosial infrastrukturu ilə səciyyələnmir. Həyata keçirilən təmir, bərpa, yenidənqurma tədbirləri sayəsində paytaxt şəhərimizin qəsəbələri, bir çox küçələri və binaları da öz əvvəlki görkəmini qoruyub saxlayır.**

Beləliklə, həm tarix yaşayır, həm insanlar rahatlıq əldə edir, həm də Bakı daha çox turistin görmək istədiyi məkana çevrilir.

Elə ilk neft quyularının qazıldığı, tarixi abidələrlə zəngin Balaxanı qəsəbəsinin yeni simasına baxmaq kifayətdir. Vaxtilə ekoloji fəlakət zonası olan Balaxanı kəndi aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri nəticəsində müasir qəsəbəyə çevrilib. Xatırladaq ki, keçən ilin sentyabr ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Balaxanıya gələrək burada görülən abadlıq işləri ilə tanış olmuş, qəsəbə sakinləri ilə söhbət etmişlər.

Abadlıq işləri qəsəbənin qədim və XX əsrin əvvəllərinə aid olan hissəsini əhatə edib ki, bu da 16 min əhalinin yaşadığı təxminən 10 kvadratkilometr ərazi deməkdir. "Bakı Abadlıq Xidməti" MMC-nin məlumatına görə, qəsəbədə mərkəzi kanalizasiya sistemi və fərdi evlərə çəkilən xətlər təzələnib, mərkəzi elektrik xətti yenilənib və fərdi evlər ona qoşulub. Yeni rabitə xətləri çəkilib. Küçələrə 70 min kvadratmetr yeni asfalt örtüyü salınıb, binaların fasadları bərpa edilib, dam örtükləri yenilənib və s. Qəsəbədə 100 mindən artıq ağac və bitki əkilib. Eləcə də çoxlu sayda lavanda və rozmarin bitkisi və gül kolunun əkilməsi həyata keçirilib.

Sözügedən tədbirdə vurğulanmışdı ki, Bakı şəhərinin qəsəbələrinin yenidən qurulması işləri çərçivəsində Balaxanıdan sonra sırada Bibiheybətdir. Çünki Bibiheybət qəsəbəsində də oxşar layihə icra edilirdi. Hazırda bu qəsəbə də tanınmaz olub. Bibiheybət buxtası təmizlənib, ərazidə park salınıb, həmçinin incəsənət və idman şəhərcikləri, bulvar yaradılıb, digər işlər görülüb. Bildirilmişdi ki, Bakının daha 7 qəsəbəsində - Ramana, Əmircan, Buzovna, Mərdəkan, Novxanı, Maştağa və Pirşağıda abadlıq işlərinə başlanıb. Bir sözlə, Bakıətrafı qəsəbələr yeni görkəm alaraq, əvvəlkindən daha gözəl və rahat yaşayış məntəqələri kimi diqqət çəkir.

Son vaxtlar Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına uyğun olaraq Bakı şəhərində, eləcə də paytaxtın qəsəbələrində vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə bir çox küçələr və yollar təmir olunub. Bu istiqamətdə tədbirlər yenə də davam etdirilir. Bu işləri isə Avtomobil Yolları Dövlət Agentliyi həyata keçirir.

Beləliklə, 2019-cu və 2020-ci illərdə paytaxtın Sabunçu rayonunun 200 kilometrdən çox qəsəbədaxili küçə və yolları təmir olunub. Rayonda 2021-ci il İnvestisiya Proqramına uyğun olaraq Ramana qəsəbəsinin mərkəzi küçəsində əsaslı yenidənqurma işləri icra edilib. Uzunluğu 700 metr, eni 9 metr təşkil edən bu küçə qəsəbənin yol infrastrukturunda xüsusi əhəmiyyət daşıyır.

Küçə torpaq örtüklü olduğundan və uzun müddət əsaslı təmir edilmədiyindən xüsusilə payız-qış aylarında burada rahat hərəkət etmək mümkün deyildi. Yenidənqurma işləri çərçivəsində küçə boyu yeni yol yatağı salınıb, piyada səkiləri inşa edilib. Təmir işləri zamanı səth sularının yolun hərəkət hissəsindən kənarlaşdırılması üçün zəruri yerlərdə yağış barmaqlıqları quraşdırılıb, kommunikasiya xətlərinin baxış qapaqları dəyişdirilib. İri və xırda dənəli olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi başa çatdırılıb.

Bu il isə rayonun 3 qəsəbəsində ümumi uzunluğu 9 kilometr olan 5 küçənin təmiri planlaşdırılıb. Bilgəh qəsəbəsində hər birinin uzunluğu 1 kilometr olan Əliağa Ağayev və Rəsul Rza küçələrində təmir işləri görülür. Yol əsası hazır olandan sonra küçələrə yeni asfalt-beton örtüyü döşənəcək.

Bakıxanov qəsəbəsində hər birinin uzunluğu 3 kilometrdən çox olan Bəşir Bünyadov və Nazim İsmayılov küçələrinin də təmiri həyata keçiriləcək və bu istiqamətdə artıq xeyli iş görülüb.

Paytaxtın Suraxanı rayonunda isə 18,5 kilometrlik qəsəbədaxili küçə və yolda təmir işləri aparılır. Qaraçuxur qəsəbəsində ümumi uzunluğu 4,3 kilometr olan 4 küçədə və Şərq yaşayış massivi yolunda yenidənqurma işləri davam edir. İlk olaraq qəsəbənin 1 kilometr uzunluğa malik Cəlal Qurbanov küçəsində bərpa işləri aparılır. Bir sıra işlər artıq yekunlaşmaq üzrədir. Asfaltlanma başa çatandan sonra küçə yol nişanları, üfüqi nişanlanma xətləri, piyada zolaqları ilə təmin olunacaq.

İnvestisiya Proqramına uyğun olaraq, analoji təmir işləri rayonun Hövsan qəsəbəsində Oktay Şabanov küçəsində də aparılır. Uzunluğu 2 kilometr olan küçənin yarıdan çoxunda təmir işləri yekunlaşıb. Qəsəbənin Bahar və Bağlar yaşayış massivlərində, Südçülük sovxozu adlanan ərazisində, bundan başqa, küçə və məhəllədaxili hissələrdə də təmir-bərpa işləri aparılacaq. Ümumilikdə, bu il Hövsanda təmiri nəzərdə tutulan küçə və yolların ümumi uzunluğu 14 kilometrdən çoxdur. Qeyd edək ki, ötən iki ildə Suraxanı rayonunun qəsəbələrini əhatə edən ümumi uzunluğu 50 kilometrədək küçə və yolların təmiri işləri icra olunub.



2021-ci ilin İnvestisiya Proqramına uyğun olaraq, Pirallahı rayonunda ümumi uzunluğu 6 kilometr 3 küçə təmir edilib.

2019-cu və 2020-ci illər ərzində Nərimanov rayonunun yaşayış massivlərinin 20 kilometrdən çox daxili küçə və yollarında təmir işləri icra olunub. Cari ildə də rayonun ərazisində 10,5 kilometr uzunluğa malik 15-dən çox küçə və yolun təmiri nəzərdə tutulub.

Xətai rayonu ərazisində isə hazırda Əliağa Şıxlinski küçəsinin "Neapol dairəsi"ndən Məhəmməd Hadi və Nəsirəddin Tusi küçələrinə qədər olan hissəsində təmir-tikinti işləri aparılır. Ümumilikdə isə tikintinin aparılacağı ümumi sahə 24 min kvadratmetrdən çoxdur. Rayonun yol infrastrukturu baxımından ən işlək küçələrindən hesab olunan Xudu Məmmədov küçəsi də təmir olunur. Küçə vətəndaşların istifadəsinə müasir görkəmdə veriləcək. Qeyd edək ki, ötən iki ildə Xətai rayonu ərazisində 32 adda küçə və yolda təmir-tikinti işləri görülüb.

Vətəndaşların rahat gediş-gəlişinin təmin olunması istiqamətində görülən işlər paytaxtın digər rayonlarında da həyata keçirilib. Bu işlər geniş bir sahə əhatə olunmaqla davam etdirilir.

Hazırda biz işğaldan azad edilmiş şəhər və kəndlərimizi yenidən tikib-qururuq. Bununla belə, başqa ərazilərimizdə də yeni zəruri infrastrukturun yaradılması, yaxud təzələnməsi unudulmayıb və nəzərdə tutulan işlər müvəffəqiyyətlə yerinə yetirilir. Çünki geniş islahatlar həyata keçirən, böyük qurucu olan Prezidentimizin məqsədi-məramı belədir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***






# Bakıda yenidən "Formula-1" həyəcanı yaşanır

*Əvvəli 1-ci səh.*

## Bu Qran-pri mövsümün ən maraqlı yarışlarından olacaq

"Formula-1" də sıradan bir yarış deyil, dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. Hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən, pilotlar və komandalar ilin sonunda, çempionluq titulu qazanırlar. Mübarizə aparan iştirakçıları sayı digər idman tədbirlərindən az olsa da, bu avtomobil yarışı tamaşaçı sayına görə yalnız futbol üzrə dünya çempionatından və Olimpiya Oyunlarından geri qalır. Hesablamalara görə, "Formula-1"in dünyadakı auditoriyası təxminən 500 milyon nəfərdir.

"Formula-1"də gündəlik həyatda görmədiyimiz və xüsusi olaraq bu idman növü üçün hazırlanan avtomobillər yarışır. Bolid adlandırılan müasir "Formula-1" avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar təkadamlıq olur, üstəlik sürücü yeri və təkərləri açıqdadır. Bu avtomobillərin yürüşü üçün tələblərə cavab verən trekin olması vacib şərtdir. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası "Formula-1" təqviminin ən gözəl mübarizə meydanlarından biridir. Çünki Bakı mübarizəsində pilotlar xüsusi avtodromda deyil, məhz şəhərin küçələrində yarışırlar. Qeyd edək ki, pilotlar həmişə Bakı Şəhər Halqası barədə yüksək fikirlər söyləyiblər. Çünki Bakıdakı mübarizə meydanı çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. Nadir xüsusiyyətlərə malik Bakı Şəhər Halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları paytaxtımızın gözəlliyini, tarixi və müasir memarlıq abidələrini, bir sözlə ecazkar bir mənzərəni görə bilirlər.

Onu da xatırladaq ki, Bakı artıq beşinci dəfədir ki, "Formula-1" yarışlarına evsahibliyi edir. Bu baxımdan "Formula-1" Azərbaycan üçün yenilik sayılmır. Yalnız ötən il koronavirus pandemiyası səbəbindən yarışın keçirilməsi məqsədəuyğun sayılmamışdı.

Bakıda keçirilən yarış bu dəfə də "Formula-1" mövsümünün ən maraqlı tədbirlərindən olacaq. Azərbaycan bu yarışı yüksək səviyyədə təşkil etməklə mükəmməl evsahibliyinin növbəti nümunəsini yaradacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## "Formula-2": Jüri Vips ilk sərbəst yürüşün qalibi oldu

**"Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində iyunun 4-də keçirilmiş "Formula-2" üzrə birinci sərbəst yürüşə yekun vurulub.**



45 dəqiqə davam etmiş yarışda "Hitech Grand Prix" komandasının estoniyalı pilotu Jüri Vips bütün rəqiblərini üstələyərək birinci olub. "Campos" komandasından Ralf Boşunq sərbəst yürüşü ikinci, "Art Grand Prix"un sürücüsü Theo Pourçaire isə üçüncü yerdə başa vurublar.

Qeyd edək ki, "Formula-2" yarışında hərəsində 2 pilot olmaqla 11 komanda birincilik uğrunda mübarizə aparır.

## Ferstappen çox iddialıdır

**"Bakı Şəhər Halqası digər treklərdən, xüsusilə Monakodakından çox fərqlidir. Monako trekinin daha çətin olduğunu düşünürəm. Bakı Şəhər Halqasında isə manevr etmək üçün daha çox yer var".**



Bu sözləri "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen "Formula-1" saytına açıqlamasında deyib.

Bakı trekinin sürüşkən olduğunu vurğulayan pilot bildirib: "Elə görünür ki, bu həftəsonu külək də bir amil rolunu oynayacaq. Həmişə yarış ərəfəsində bir az xaos olduğu görünür. Ancaq yaxşı balans tapan kimi çox uğurlu nəticə əldə edə biləcəyimizə inanıram".

## Liam Layson sıralama turunu 1-ci yerdə başa vurub

**"Hitech Grand Prix" komandasının pilotu Liam Layson Bakıda keçirilən "Formula-2" yarışında sıralama turunun qalibi olub. L.Laysonun komanda yoldaşı Jüri Vips ikinci, "Prema Racing" komandasının pilotu Oskar Piastri isə üçüncü yeri tutublar.**



Səkkiz mərhələdən ibarət yarışa dekabrın 10-12-də Əbu-Dabidə yekun vurulacaq. Bakı yürüşünə qədər keçirilmiş iki yarışın nəticəsinə görə, pilotların sıralamasına "UNİ-Virtuosi" komandasının çinli üzvü Guanyu Zhou 68 xalla başçılıq edir. Komandaların sıralamasında isə "Uni-Virtuosi" 97 xalla birincidir.

## "Formula-1"də ilk günün qalibləri müəyyənləşdi

**"Formula-1" Azərbaycan Qran-prisində ilk gündə birinci və ikinci sərbəst yürüşlər başa çatıb.**

Yürüşlərə hər biri iki pilotdan ibarət 10 komanda qatılıb. Yürüş iştirakçıları 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Birinci sərbəst yürüşü "Red Bull Racing"in pilotu Maks Ferstappen lider kimi tamamlayıb. "Ferrari"nin üzvləri Şarl Lekler ikinci, Karlos Sayns isə üçüncü olublar.

Axşam saatlarına doğru "Formula-1" Azərbaycan Qran-prisinin ikinci sərbəst yürüşü başlayıb. Yürüşün yekununda birinci yerdə "Red Bull Racing" komandasının pilotu Sergio Perez, ikinci yerdə eyni komandanın pilotu Maks Verstappen, üçüncü yerdə isə "Scuderia Ferrari Mission Winnow" komandasının pilotu Carlos Sainz qərarlaşıb.



# "Formula-1"in könüllüləri







**Böyük maraqla izlənilən və avtomobil yarışları içərisində yüksək nüfuza malik olan "Formula-1" Azərbaycan Qran-prisi həyəcanı başlayıb. Sürət həvəskarlarının səbirsizliklə gözlədikləri cari mövsümün 6-cı mərhələsinə də hazırlıq işlərinin ən yüksək səviyyədə görüldüyü diqqət mərkəzindədir.**

Planetin bir nömrəli avtomobil yarışının təşkilində və keçirilməsində bir sıra adamlar xüsusi rol oynayırlar. Onların arasında marşallar (könüllülər) da var. Onları "Formula-1" aləmində "Yarış rəsmiləri" də adlandırırlar.

Ümumiyyətlə, dünyada marşallıq sevimli məşğuliyyət kimi qəbul olunur. İnsanlar müxtəlif yarışlarda marşallıq edərək həm maraqlı vaxt keçirir, həm də yarışı yaxından izləmək şansı qazanırlar. Beş il əvvəl Bakı Şəhər Halqası əməliyyat şirkəti tərəfindən təsis edilmiş "Baku Marshals Club" marşallıq fəaliyyətinin bütün istiqamətlərinə dair tədbirlər təşkil edir, müsahibələr və təlimlər keçirir, eyni zamanda beynəlxalq marşal klubları ilə sıx əməkdaşlıq qurur. Marşallar yerinə yetirdikləri vəzifələrə görə aşağıdakı növlərə bölünürlər:

**Sektor marşalları** trek xəyali olaraq sektorlara bölünür və hər bir sektora nəzarət bir sektor marşalına və onun bir, yaxud iki müavininə tapşırılır. Onlar trek üzrə təyin olunduqları sahədə əsas səlahiyyətli nümayəndə hesab olunur və burada baş verən bütün hadisələrə görə məsuliyyət daşıyırlar.

**Trek marşalları** halqa boyunca nəzarət postlarında yer alan əsas marşallardır. Onların bir çox vəzifələri var. Trek marşalları rəsmilər arasında ən çox məsuliyyət daşıyan şəxslərdir. Onların vəzifələrinə trekə daxil olub onu qalıqlardan təmizləmək, təhlükədə olan avtomobilləri itələmək və qəzadan sonra ərazini təmizləmək daxildir. Bu işi görə bilmək üçün zirəklik, komandada işləmək qabiliyyəti, dözümlülük və təcrübə tələb olunur.

**Bayraq marşalları** trek boyunca marşal məntəqələrində yarış iştirakçılarını bayraq vasitəsilə məlumatlandıran məsul şəxslərdir. Onların başlıca vəzifələri sürücülərlə bayraqlar vasitəsilə əlaqə qurub pilotları qarşıda olan təhlükə barədə məlumatlandırmaq, qəza anında mövqeyində qalaraq yolda baş vermiş təhlükə barədə xəbərdar etməkdir.

**Rəqəmsal bayraq marşalları** halqa boyunca müvafiq mövqelərdə yerləşdirilib digər bayraq marşallarının üzərinə düşən işi görürlər. Yeganə fərqləri bayraq əvəzinə displeydən istifadə etmələridir.

**Start və finiş marşalları** yarışı başlamaq və bitirmək üçün





damalı bayraqlardan, elektron vaxt tablolarından və digər vasitələrdən istifadə edirlər. Onlar start və finiş xəttində müxtəlif bayraqları (qara bayraq, mexaniki bayraq və s.) göstərməyə görə cavabdehlik daşıyırlar.

**Yanğınsöndürmə və xilasetmə marşalları** yanğınsöndürmə üzrə geniş təcrübə əldə ediblər. Onlar tədbir zamanı bütün yanğın və xilasetmə işlərinə görə cavabdehlik daşıyırlar.

**Tibbi marşallar.** Bu xidmətə həkim heyəti (həkimlər, orta təhsilli tibb işçiləri, tibb bacıları və s.), avadanlıq və nəqliyyat vasitələri, trekdə təxirəsalınmaz kömək, yaralıların daşınması, tibbi mərkəz, kommunikasiya sistemi, əvvəldən təyin olunmuş xüsusi xəstəxanalar daxildir.

**Texniki təftiş marşalları** gündəlik olaraq hər bir avtomobili, o cümlədən qəzaya uğramış avtomobilləri təftiş edərək onların təhlükəsizlik və uyğunluq tələblərinə cavab verdiyini müəyyən edirlər.

**Pit və sıra düzülüşü marşalları** hər bir tədbirdən əvvəl start düzülüşünü qururlar. Onların vəzifələrindən biri tədbir zamanı pit xəttindəki nəqliyyat vasitələrini və insanları yönləndirməkdir.

**Bərpa üzrə marşallar** evakuator avtomobillərinin heyəti və onların köməkçiləri daxildir. Onların vəzifəsi tədbir zamanı və tədbirdən sonra sıradan çıxmış və hərəkətsiz qalmış avtomobilləri trekdən uzaqlaşdırmaqdır.

**Kommunikasiya üzrə marşallar** rabitəçi və ya müşahidəçilər kimi tanınırlar. Onlar hər bir marşal postuna təyin edilir, baş verənləri müşahidə edir, yarışa nəzarət otağına xüsusi audio rabitə kanalları vasitəsilə məlumat ötürürlər.

**Hüdudlar üzrə marşallar** isə halqa boyu çətin vəziyyətdə qalmış sürücülərə kömək etmək və onları yubanmadan pitlərə aparmaqdır.

**Logistika və marşalların** təchizatı könüllülərinin vəzifəsi digər marşalları tədbirdən əvvəl və tədbir zamanı yemək, su, avadanlıq, dəftərxana ləvazimatı, radio qurğuları və geyimlə təmin etməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Yüksək ehtiramın təcəssümü

## Dünyanın güc mərkəzləri İlham Əliyevin Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallığı təqdir edirlər

*Əvvəli 1-ci səh.*

Azərbaycan Çinin 2013-cü ildə irəli sürdüyü “Bir kəmər, bir yol” layihəsini ilk dəstəkləyən dövlətlərdən olmaqla bunu əməli fəaliyyəti ilə sübut edib. Prezident İlham Əliyevin 2019-cu ildə “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak etməsi əlaqələrin inkişafına böyük töhfə verib.

Son vaxtlar iki ölkə arasında ticarət dövriyyəsində müşahidə olunan davamlı yüksəliş, o cümlədən Azərbaycandan Çinə ixracın artmasında Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq komissiyasının rolu böyükdür. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, Azərbaycan məhsullarının Çin bazarında təşviqi məqsədilə kompleks addımlar atılır, Azərbaycan Çində təşkil olunan beynəlxalq sərgilərdə “Made in Azerbaijan” vahid ölkə stendi ilə təmsil olunur. Bu tədbirlərin nəticəsi olaraq Azərbaycan məhsullarının Çinə ixracı istiqamətində bir sıra razılaşmalar əldə olunub, müqavilələr imzalanıb.

İqtisadi əlaqələrə nəzər yetirsək aydın şəkildə görərik ki, son 5 ildə idxal-ixrac dinamikası xeyli yüksəlib. Əgər 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar idisə, 2019-2020-ci illərdə bu rəqəm 2,2 milyard dollar olub. Bu gün Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətində Azərbaycanın payı 45 faiz təşkil edir. Hazırda Çin Azərbaycanın beş böyük ticarət tərəfdaşından biridir.

Telefon danışığı zamanı Si Cinpin Çin şirkətlərinin Azərbaycana investisiya qoyuluşunu daha da təşviq etməyə, infrastruktur layihələri çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildirməsi isə güclü iqtisadi inkişafa, əlverişli investisiya mühitinə malik olan Azərbaycana marağın ifadəsi kimi qiymətləndirilməlidir. Hazırda Azərbaycanda 120-yə yaxın Çin sərmayəli şirkət fəaliyyət göstərir. Bu şirkətlər Azərbaycana 900 milyon dollardan çox investisiya yatırıblar. Azərbaycanın isə Çin iqtisadiyyatına yatırdığı investisiyaların həcmi 1,7 milyard dollar təşkil edir. Hazırda Çinin “Huawey” şirkəti işğaldan azad olunmuş ərazilərimizdə mühüm layihələr icra edir.

Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı “İpək Yolu İqtisadi Kəməri”nin tərkib hissəsi kimi mühüm yer tutur və ölkəmiz bu nəqliyyat marşrutları ilə malların Çindən Avropaya, Avropadan isə Çinə gətirilməsi üçün ən qısa yoldur.

Çin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Belə bir gücün ölkənin birinci şəxsi simasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini ifadə etməsi Çinin İlham Əliyevin Cənubi Qafqazda formalaşdırdığı yeni geosiyasi reallığa ehtiramının təsdiqidir.

### Avropa İttifaqı İlham Əliyevin islahatlarını yüksək qiymətləndirir

Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin Prezident İlham Əliyevə telefon zəngi edərək bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparması isə, ilk növbədə, postmüharibə dövründə Azərbaycanın beynəlxalq arenadakı rolunun güclənməsi reallığını isbat edir.

Söhbət zamanı səslənən fikirlərə əsasən deyə bilərik ki, Avropa İttifaqı Azərbaycana regionun lider dövləti kimi yanaşır və İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatları yüksək qiymətləndirir. Avropa İttifaqının 2004-cü ildən həyata keçirdiyi “Yeni qonşuluq siyasəti” proqramı çərçivəsində Azərbaycanın bu təşkilatla iqtisadi, siyasi, hüquqi və inzibati islahatları həyata keçirmək imkanı yaranıb.

Bu gün Azərbaycanla Avropa İttifaqı arasındakı əlaqələr yeni mərhələdə uğurla inkişaf edir. “Şərq tərəfdaşlığı” proqramı təşəbbüsü çərçivəsində münasibətlərin daha da möhkəmlənməsi nüfuzlu Avropa qurumunun ölkəmizə verdiyi böyük önəmi bir daha təsdiqləyir. Qlobal güc mərkəzi olan Avropa İttifaqı Azərbaycanın ən vacib tərəfdaşlarından biridir və ölkəmizin ticarət dövriyyəsinin yarıdan çoxu Aİ-nin payına düşür. Aİ-yə üzv dövlətlərin üçdəbir hissəsi ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sənədləri və bəyannamələri imzalanıb.

Şarl Mişel ilə Prezident İlham Əliyev arasında telefon söhbətində Azərbaycanın istər dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında, istərsə də regionda və dünyada sülhün, əmin-amanlığın möhkəmləndirilməsində rolunun yüksək dəyərləndirilməsi ölkəmizə verilən önəmin, artan nüfuzun göstəricisidir.

Telefon söhbəti zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra regionda təhlükəsizlik və sabitliyin təmin olunması məsələləri də müzakirə olunub. Aİ Şurasının prezidenti Şarl Mişel qurumun Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olduğunu da bildirib. İlham Əliyev Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması üçün danışıqlara başlamağa hazır olduğunu qeyd edib, lakin Ermənistanın hələ də bu çağırışa cavab vermədiyini bildirib. Avropa İttifaqı Şurasının prezidenti hər iki tərəfi konstruktiv mühitdə danışıqlar aparmağa çağırıb.

Bu, əlbəttə ki, Ermənistana ünvanlanan mesaj idi. Çünki qalib Azərbaycanın lideri İlham Əliyevin müharibədən sonra regionda sülhün, təhlükəsizliyin təmin olunması üçün hətta Ermənistanla əməkdaşlığa hazır olduğunu bəyan etməsi tərəflər arasındakı fərqi göstərir. İlham Əliyev Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması üçün danışıqlara başlamağa hazır olduğunu vurğulayıb, lakin Ermənistanın hələ də bu çağırışa cavab vermədiyini bildirib.

Bir sözlə, həm Çin rəhbərinin, həm də Aİ Şurasının prezidentinin Azərbaycan Prezidenti İlham Əliyevlə fikir mübadilələri aparmaları, ilk növbədə, postmüharibə dövründə Azərbaycanın beynəlxalq arenadakı rolunun gücləndiyinin və daha etibarlı tərəfdaşa, söz sahibinə çevrildiyinin bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İyunun 7-dən koronavirusa qarşı peyvəndlənmədə vətəndaşlar “Pfizer” vaksinindən də istifadə edə biləcəklər

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıblar.

AZƏRTAC-a daxil olan məlumatda deyilir: “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir.

İyun ayının 7-dən yeni növ koronavirus infeksiyasına qarşı peyvəndlənmə məqsədilə vətəndaşlar “Pfizer” vaksinindən də istifadə edə biləcəklər. Bu, vətəndaşlarımızın seçim imkanlarını daha da artırır. Həmin vaksinin istifadəsinə Azadlıq prospekti 112 ünvanında yerləşən Bakı Sağlamlıq Mərkəzində və Parlament Prospekti 76 ünvanında yerləşən Mərkəzi Klinik Xəstəxanasında başlanılacaq. 18 yaşından yuxarı olan və əks-göstəriciləri olmayan hər bir vətəndaş peyvənd oluna bilər.

Bunun üçün https://randevu.its.gov.az/ saytına daxil olaraq, “COVID-19 vaksin randevu” elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürülməlidir. Bunun üçün “COVID-19 vaksin randevu” elektron xidmətində vətəndaş ilk olaraq şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FIN kodunu daxil edib “yoxla” düyməsinə basmalıdır. Bundan sonra vətəndaş təqdim olunan siyahıdan peyvənd məntəqəsini, randevu tarixini və saatını seçib, mobil nömrəsini daxil etməlidir. Qeydiyyat başa çatdıqdan sonra daxil edilən mobil nömrəyə növbənin qeydə alınması ilə bağlı mesaj göndərilir. Mesajda birinci dozanın vurulacağı tarix, saat və məkan qeyd edilir.

Peyvəndin birinci dozası vurulduqdan 28 gün sonra ikinci dozanın vurulması üçün təkrar qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Çünki ilkin müraciət zamanı artıq ikinci doza üçün də eyni saat aralığına və məkana avtomatik elektron növbə verilir.

Qeyd edək ki, “Pfizer” vaksini Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tanınıb”.

# Azərbaycanda koronavirus infeksiyasından daha 406 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 406 nəfər müalicə olunaraq sağalıb, 123 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 334 min 539 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 326 min 269 nəfər müalicə olunaraq sağalıb, 4933 nəfər vəfat edib. Aktiv xəstə sayı 3337 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 551 min 620 test aparılıb. Dünənki test sayı isə 9585-dir.




# Azərbaycanda koronavirusa qarşı birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon 540 mindən çoxdur

**İyunun 4-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 47 min 637 doza vaksin vurulub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 42266, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 5371 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 465 min 719-a bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon 540 min 259, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 925 min 460 nəfərdir.





# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

“Azərmətbuatyayımı” ASC (012) 440-46-94, (012) 441-19-91
“Azərpoçt” ASC (012) 598-49-55, (051) 225-02-13
“Qaya” firması (012) 566-77-80, (050) 214-40-53
“Kaspi” MMC (012) 432-39-55, (012) 510-82-24
“Region Press” MMC (055) 316-79-01, (050) 316-79-01
“Səma-M” MMC (012) 594-09-59
“Ziya” LTD (012) 497-76-96, (050) 306-77-22
“Pressinform” MMC (012) 598-49-52, (070) 340-01-00
“City press” MMC (055) 819-09-26

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC tərəfindən ofis texnikası və kompüterlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 19 aprel 2021-ci il tarixli qərarına əsasən, “Caspel” MMC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 01.06.2021-ci il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## Sosial Tədqiqatlar Mərkəzi *təkliflər sorğusu elan edir*

Sosial Tədqiqatlar Mərkəzi obyektinin tikintisi işlərinin satın alınması.

Maraqlanan təşkilatlar **(012) 510-70-78** nömrəli telefonla əlaqə saxlaya bilərlər.

İddiaçıların ixtisas göstəriciləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci bəndinə uyğun gəlməlidir. Zərurət yaranarsa, ixtisas göstəricilərinə dair sənədlər tələb edilə bilər.

Təkliflər sorğusu **14.06.2021-ci il saat 15:00-da** keçiriləcəkdir. İştirak etmək üçün sənədlər **11.06.2021-ci il saat 17:00-dək** qəbul olunur. Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov 62.

***Tender komissiyası***

# Sumqayıt Dövlət Dram Teatrından daha bir layihə

Sumqayıt Dövlət Dram Teatrının yaradıcı heyəti dövlət başçısının 2021-ci ilin dahi mütəfəkkir şair “Nizami Gəncəvi ili” elan olunması ilə əlaqədar “Nizami Gəncəvi - 880” tədbirləri çərçivəsində pandemiya qaydalarına əməl etməklə daha bir layihə hazırlayıb.

Mətnin müəllifi və quruluşçu rejissor Əməkdar artist Namis Şirməmmədov mütəfəkkir şairin “İsgəndərnamə” poemasında önəmli yer alan, didaktik əhəmiyyət kəsb edən İsgəndərlə Nüşabənin hekayətini videoformatda təqdim edir. Teatrın bir qrup yaradıcı və texniki heyətinin böyük səyi nəticəsində ərsəyə gələn layihədə aktyorlar Sevda Hüseynova, Kamran Muradlı və Aynur Hümmətova maraqlı oyun nümayiş etdirirlər.

Layihənin rəhbəri Əməkdar artist Mübariz Həmidov, montajçı Fuad Kazımov, rəssam Arif Müzəffərov və səs rejissoru Famil Ağalıdır. Hekayətin vizual həlli, musiqi tərtibatı və digər texniki göstəricilərin peşəkar səviyyədə işlənməsi müəllif qayəsinin, rejissor ideyasının açılmasına təkan verir. 9 əsrlik bir zaman keçidinin müasir izi, sənətkarın cahanşümul kəlamları dinləyicini məftun edir.

Qeyd edək ki, “Nizami Gəncəvi ili” çərçivəsində ustadın digər sənət əsərlərinə də müraciət ediləcək.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı

**MƏHƏRRƏM İBRAHİMOVUN**

erməni terroru nəticəsində həlak olmasından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi AzTV-nin əməkdaşı

**SİRAC ABIŞOVUN**

erməni terroru nəticəsində həlak olmasından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi Kəlbəcər Rayon İcra Hakimiyyətinin əməkdaşı

**ARİF ƏLİYEVİN**

erməni terroru nəticəsində həlak olmasından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Hesablama Palatasının kollektivi Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC-ın müxbiri

**MƏHƏRRƏM İBRAHİMOVUN**

Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində həlak olmasından kədərləndiyini bildirir, AZƏRTAC-ın kollektivinə və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Hesablama Palatasının kollektivi “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin - AzTV-nin operatoru

**SİRAC ABIŞOVUN**

Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində həlak olmasından kədərləndiyini bildirir, AzTV-nin kollektivinə və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin sabiq hakimi

**NƏRİMAN HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şəki rayonu üzrə icra və probasiya şöbəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Akşin Ziyadova anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Balakən rayon icra və probasiya şöbəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Akşin Ziyadova anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqatala rayon icra və probasiya şöbəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Akşin Ziyadova anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5079**
**Sifariş 966**
**Qiymәti 40 qəpik**